Adsız yol
Şahin Xəlil

Bu kitabın ərsəyə gəlməsində əməyi keçən hər kəsə minnətdaram. Əsasən də mənə daim dəstək olan dostlarıma...

Ümidvaram ki, əlinizdə tutduğunuz bu kitabı oxumaq vaxt itkisi olmayacaq.

Xüsusi minnətdarlıq Bakının küçələrinə, yağışlarına, İçərişəhərin tinlərinə, dalanlarına, ilhamlandığım bütün filmlərə, mahnılara, nifrət etdiklərim və sevdiklərimə, oxuduğum kitablara...

Prodüsser: Rasim Əliyev
Redaktor: Nicat Nəzərov
Korrektor: Gülarə Abdullayeva
Dizayn: Səbinə Süleymanova
E-book cover: Şahin Xəlil
Satış meneceri: Sona Cəmşidli və Ferat
Reklam meneceri: Ferat
Tərəqqi nəşriyyatı
Zırramalar production

Əlaqə məlumatlar üçün:
http://www.facebook.com/sahinxalil
http://www.facebook.com/WriterFerat
http://www.facebook.com/zirrama

Adsız yol

BAKI, 2010/ 2011

Proloq

Qaranlığın tam ortasıyla gəlirdi.

Rənglərin ən zəhmlisini addımlarıyla yarırdı. Yardıqca arxada buraxdığı boz kölgələr siluetini canlandırıb, yoxa çıxırdılar.

Sahibsiz küçə itlərinin hürüşü və ilbislərin səsi pərdəyə çəkmişdi bu qaranlığı. Qəddar auranin tükürpədici xışıltısındakı qorxular idi gələn. Uşaqları qorxudan "xoxan"obrazı idi bəlkə də. Bəlkə də borc yiyələrinin vicdan xəyalındakı hədələri...

Ölüm qoxusu,günəşdən əsər-əlamət qalmayan şəhərin fobiyası idi.

Qaranlığın boğduğu fəryadları var idi bu çiskinli havada. Bir az da yağış var idi. Hərdən qonurdu pəncərələrin tozlarına. Yazıq damcılar...Çirklənirdilər bu tozlu pəncərələrin çirkabında.

***

Qorxum yaşamaqdı,ölməyə nə var ki...

Bir Allah, bir dost, bir yar ki...

Versin stimul, kəndir ki, yapışım məqsədlərdən, hədəflərdən.

Arzu səmasına ulduz qonsun,"kaşkiləri" pozum dünənlərdən.

Pessimist aura, beyinə çaxılan güllə.

Qarşılayım ölüm mələyini,qucaq dolusu güllə.

Verilsin bütün xəstələrin dərdləri,yetimlərin göz yaşları.

Tikək mərhəmət şəhəri,çıxaraq çürümüş daşları.

Qaynadaq ağıllılar qazanında axmaq başları.

İnsan yaratmayıbmı pulu?

Niyə bəs olub öz yaratdığının qulu?

Axi gülüşü unudan milyonlar var.

Günahkar izləri örtməyə yada düşmür Allah,"itəcək, yağsın kaşki qar".

Qonşu-qonşu arasında dəmir hasar, çəpər.

Kabab qoxusu, ac olan cəhənnəmə ki?

Düşünmə ki, nəfsi çəkər.

Səni əməllərin əkibsə, günahlarınmı biçər?

Qəlbinə boylan,şəhərini görə bilməkçün.

Günah özündədir,ağırdırsa yükün.

-Toplantını açıq elan edirəm.

-Yaxşı ki iclas demədin.Ha-ha-ha...

-Az gül,qədəhləri doldur,ay Cavid.Özündən böyüyün də sözünü kəsmə.

-Oldu,cənab kapitan!

-Cənab kapitan çoxdu Cavid, familiyası Qubarov olan isə təkcə bu bədbəxt Cəlildir.

-Həri, qardaş, onda siftəni dünyadakı yeganə Qubarov Cəlilin şərəfinə içək,nə deyirsiz? Eyvaz,dur bir sağlıq de,şair.

Gülüş səsləri, qədəhlərin cingiltisi, səs-küylü ənənəvi qonaqlıq (içki desək də olar) məclisi. Stol arxasında dörd dost əyləşib. Eyvaz, Cəlil, Cavid və Toğrul. Kübar ailə uşaqlarıdırlar. Bəlkə də elə bu amil onları dost edib bir-birlərinə. Valideynlərinin onları bir-birinə dost bildikləri, etdikləri bu cavanların öz seçimləri olmayıb dostluqda.Təkcə dostluqda deyil...

-Özün ala biləcəyin haqqı qoyma sənə sədəqə etsinlər. Əzizlərim, bizim gücümüz ala bildiklərimizdədi. Gəlin içək gücümüzün sağlığına.

-Gücümüzün,ya pulumuzun? Ha-ha-ha...

-Sən də söz danışdın da indi, Cavid. Kişi o cür sağlıq dedi. Heç pulun yeri idi?

-Yaxşı da, zarafat idi də, elədim. Vurun, öldürün məni.

-Əslində Toğrulun sözündə həqiqət var a, Cəlil.

-Nə həqiqət? Sən də bəsdir tərəfin saxlama bunun. Bu içməmiş dəm olub.

-Tərəf saxlamıram Cəlil, amma doğurdan təsir elədi bu söz. Bu barədə hərdən mən də düşünürəm və istəyirəm sizinlə bölüşüm düşüncələrimi indi. Başınızı ağrıtmayacağamsa...

Hər üç dost Eyvaza fikrini tamamlamağa imkan vermədən bir ağızdan, xorla:

- Əstagfrullah Eyvaz, buyur... - dedilər

Eyvazın düşüncələri

- Biz hər birimiz ölkənin ən varlı, tanınmış simalarındanıq. Sahibkarı olduğum bank dünyanın ən prestijli, tanınan banklarındandı. Cavidin özəl klinikaları, Toğrulun brend markalı geyim mağazalar şəbəkəsi, Cəlilin idman kompleksləri, bazaları var. Yəni bizə sosial vəziyyət, ümumiyyətlə, bu söz özü maraqsızdı. Kasıb dili ilə desək varlıyıq, pulumuzu balta kəsmir.Bununla qürur duyuruq. Maşınımıza, özümüzə,hətta nə vaxtsa üzünə təsadüfən güldüyümüz adamlara da hər yerdə yaşıl işıqdı. Hansı birimiz yol qaydalarını bilirik? Heç birimiz.

Nəyimizə lazım. Biz qazanmışıq məgər bu tutduğumuz yeri? Xeyr, cənablar. Valideynlərimizin adı, soyadı olmasaydı...gəlin bura.

Hər üç dost pəncərə qarşısında diqqətlə nəyəsə baxan Eyvaza yaxınlaşırlar. Eyvaz parkda skamya üzərində uzanan bomju göstərərək:

-Bəlkə biz də, bax o fəqirin yanında, yerində, bəlkə ondan da bətər, ya bir az ondan üstün ("üstün" sözünü xüsusi vurğuyla deyir) olacaqdıq. Kabus olacaqdıq onun kimi. Qudurğan olmayacaqdıq. Üzümüzə gülənlərin mimikalarındakı saxtalığı, süniliyi, qrimi görmək üçün arif olmaq vacib deyil. Bir az diqqət etsək ətrafımızda nə qədər yaltaq, iki və daha çox siması olanları asanlıqla görmək olar. Tərif, alqış bizi ucaltmır dostlar, məhv edir. Biz isə bunun fərqinə belə varmadan rahat yaşayırıq. Yox, bu yaşayış deyil. Naşükürlük də deyil. Üsyan da deyil. Ruhun ürəklə mübarizəsidi. Bahalıoyuncaqlarıq biz. Vitrinləri bəzəyən oyuncaqlar. Kasıbların həsrətlə tamaşa etdiyi vaxtda,varlıların sevimlisi olan oyuncaqlar. Oynayırlar bizlə.Nə vaxtsa keyfiyyətimiz itəndə tullayacaqlar bizi zibilliklərə. Yeniləri, biriləri bizi əvəzləyəcək. Bizsə zibillikdə eşələnən hansısa yoxsulun tapıntısı olacağıq. Övladına verəcək. Həmin uşaq qədrimizi biləcək. Qopmuş əlimizi, sapımızı tikəcək, təzələyəcək, həyat verəcək. Məhz həmin an illərimizin saxtalığını görəcəyik. Məhz həmin an bahalı oyuncaq olduğumuza lənət edəcəyik və məhz həmin an uduzduğumuzu anlayacağıq.

Sıfırdan

Eyvaz sözünü bitirdi. Təsiredici, reallıqda qovrulan sözlərin ağırlıqları qarşısında məclisə ölü sükut çökmüşdü. Qar gətirmişdi sözlər masa üzərinə, ətrafına. Donmuş baxışlar uzanır, nəfəslər çəkilirdi. Susqunluq uzandıqca uzanırdı. Nəhayət Cəlil sükutu pozdu:

-Düşünmək istəmədiklərimizi düşündürdün bizə. Nə deyim bilmirəm. Bildiyim bir şey var,o da indi özümə yaranan nifrətimdi.

-Hələ də gec deyil!

Eyvazın bu ümidverici nidası təəcüblü baxışlarla müşayiət olundu.

-Nə demək istəyirsən, Eyvaz?

Məhz bu sual idi həmin an hər birinin beynində.

Eyvaz alnını qaşıyıb, kinayə ilə gülümsəyib dedi:

-Sıfırdan başlamağa nə deyirsiz?

Cavid az qala pıçıltıyla:

-Nəyi başlamağı?

Toğrul əlavə etdi:

-Sən Allah ay Eyvaz, açıq danış. Artıq başımız işləmir ki sətiraltı yozaq.

Eyvaz ona zillənən sual dolu baxışları intizarda saxlamaqdan zövq alırmış kimi bir az susdu və nəhayət mətləbə keçməyə qərar verdi:

-Burda sətiraltı heç nə yoxdu. Sıfırdan başlayacağıq.Yenidən doğulan körpə kimi. Özümüz öz həyatımızı öz istədiyimiz kimi qurmağa cəhd edəcəyik. Ən əsas özümüzü kəşf etmiş olacağıq. Həqiqətdə kim olduğumuzu anlayıb da özümüzü sınayacağıq.

Cəlil gülümsəyərək:

-Həə, mənə yavaş-yavaş aydın olur artıq.

Toğrul təəcüblə:

-Sıfırdan, özünü sübut, yenidən doğuluş...Yəni sıradan biri?

Eyvaz əl çaldı:

-Afərin Toğrul, düz anladın. Sıradan və kabus olaraq. Zahiri görünüşümüzü, geyimimizi dəyişirik. Ailə, işlə halallaşıb, sağollaşıb guya ezamiyyət, məzuniyyət adıyla xarici ölkəyə gedirik, amma əslində adsız yola çıxırıq. Hər gün cənnət cildində gördüyümüz Bakının cəhənnəminə şahid olmağa gedirik. Bir yerdə yox,

hərəmiz ayrı olaraq. Dözüm, iradə, mübarizə əzmiylə. Bu məcburi deyil və kim nə vaxt istəsə öz cənnətinə rahat dönə bilər.Məqsədimiz həqiqəti görməkdi. "Pul hər şey deyil" frazasını təsdiq etməkdi. Nə deyirsiz,razısınız adsız yola çıxmağa?

Cəlil düşünmədən əl qaldıraraq razılığını bildirdi.Cavid qədəhi qaldırıb dedi:

-Adsız yola çıxmağımızın və bu gözəl ideya sahibi Eyvazın sağlığına.

Toğrul bığaltı bic-bic gülərək:

-Həri e, lənət şeytana. Varam bu sınağa. Eyvaz sənin sağlığına.

Qədəhlər cingildədi.

-Amma, bir-iki detal var. Əvvala bu söhbəti heç kim bilməyəcək dördümüzdən başqa. Sonra...hmm, hə dördümüzdən biri bizim işlərimizi nəzarətə götürmək üçün bu sınaqda iştirak edə bilməyəcək. Birdə düz bir il sonra məhz bu məkanda görüşməklə bitəcək yol. Yəni müddət bir ildi. Kim yarı yolda imtina etsə Cəlilə kömək edə bilər. Məncə Cəlilə sübut lazım deyil. O zabit olaraq özünü çoxdan sübut edib özünə.

-Eee, ay Eyvaz, Toğrul canı, olmadı ki...Mən göydən düşmüşəm bəyəm?

- Düz deyir də Eyvaz, nə olub əl qatmısan özüvə? Bir il hərbidən nə adla yayınacaqsan? Qoca vaxtında türmən çatmır elə.

- Həri Cəlil, tebe eto nado? Ha-ha-ha...

- Hə uşaqlar, şərtlər məlum oldu. Yaddan çıxan nəsə olmadı məncə. Daha bu günlük söhbəti bağlıyaq, yeməklər israf olmasın. Nuş eliyin. Sabah yola çıxırıq. Xeyirlisi olsun.

Əlvida Bakı, Salam Bakı...

Aqressiyam adaptasiya olmur mühütə.

Gücüm çatmır öz toxuduğum səbətə.

Toxunmağım gəlir günəşə.

Qorxuram çevrilər xəyallar vərdişə.

Qayıdacağam getdiklərimin şəhərinə.

Mənası nə?

Dişlə nəfsini.

Mənim sevgimdən sənə nə?

İşıq çəkdirəcəyəm gözlərimə ki,görüm.

Həyatmı pis,ya ki,ömrüm?

Sınacaq güzgülər bizə göstərəndə qırışları.

Ağlamayacağam!

Yazıqdı göz yaşları.

Qaldır qaşları,dik tut belini.

Məğrur görünüşünlə qazan sevgini.

Nə gözəl sınaqdı həyat ki,cənnəti cəhənnəm edən bizlərik.

Hələ doymamışıq,yenə cənnət gözləyirik.

Qaça-qaça qalmısan sürünən arxasında.

Yada düşəcəksən son dəfə yasında.

Yox Bakı, deyilsən mənə yar.

Sənə də yağdı qar.

Günün də dalanların kimi dar.

Ümüd saxlama ki,o qayıdar.

Məcnun epiloquyla bitdi,yoxdu vəfalı yar.

Minnətin olsun.

Saxla kin.

Yaxşılıqlarını cəmlə ki,vurasan başıma.

Gedirəm səndən Bakı,çıxma qarşıma!

Eyvaz gecəni daş kimi yatdı. Səhər gözünə düşən günəşin şüası, xidmətçilərin mətbəxdən gələn beyinə işləyən dır-dırları ilə oyandı. Gecədən hazırladığı idman çantasını gördü. Dodaqaltı "Səni götürsəm sıfırdan yox 0,1 dən başlayacağam. Bunu da istəmirəm"-dedi. Cəlilə zəng elədi və yadına düşdü ki,axşam 5 də görüşəcəklər Cəlililin idman kompleksində...

Toğrul qucağında noutbuk yatıb qalmışdı. Virtual aləmin dəlisi idi. Müxtəlif saytlarda yüzlərlə dost-tanış yığmışdı. Onun kimliyini hamı bilirdi, ona görə də məktub qutusuna gündə yüzlərlə məktub gəlirdi. Qadın düşgünü olduğundan adı tez-tez şou ulduzları, müğənni, aktrisa, modelləri ilə hallanırdı. Bu onun vecinə də deyildi və öyrəşdiyi həyatını dəyişmədən yaşayırdı... Cəlilin zənginə oyandı və bu günün vacibliyi yadına düşdü.

Obaşdan durmuşdu Cavid. Günəşi salamlamağı sevirdi. Çau-çau cinsindən olan itləriylə gəzintiyə çıxmışdı bağa. Nümunəvi oğul idi Cavid. Öz ağlıyla daxil olduğu Tibb Universitetinin nümunəvi tələbəsi olmuş ,psixologiya üzrə ali təhsil almışdı.Sahibkarı olduğu klinikaların xəstəsi olan insanlar da razı qalırdılar yaradılan hər tərəfli şəraitdən.

Cəlilin zənginə gərək yox idi, çünki Cavid unutmamışdı dünənki söhbəti, bu günki günün məsuliyyətini...

Hamıdan tez Cəlil oyanmışdı. Milli Ordunun zabiti olduğundan adətkərdə etmişdi tez oyanmağı. Zabitliyə vətənə olan sevgisi gətirmişdi onu.Valideynləri nə qədər təkid etsələr də onu fikrindən daşındıra bilməmişdilər. Nadir hallarda

kübar ailələrin övladları bu peşəni seçirdilər. Cəlil də həmin nadirlərin nadiri idi. Məsuliyyətinə görə hər dörd dostdan üstün idi. Bu amil Cəlilə orta yaşında "ağsaqqal" imici qazandırmışdı. Məsuliyyətinə təkan verən amillərdən biri də evli, üç uşaq atası olması idi.

Nərimanov metro stansiyası yaxınlığında yerləşən idman kompleksində görüşdülər. Saat 6-ya işləyirdi. Eyvaz dostlarını diqqətlə süzdü. Hər üç dostu rahat, gülərüz görünürdülər.

- Həə,hazırsız uşaqlar?

- Hazırıq,rəis!

- Evlə sağollaşmısızsa, tam konsentrasiya olmusuzsa, onda xahiş olunur cibdə nə var boşaldıb Cəlilə verin.

- Telefon-zad da olmaz?

- Yox Toğrul, sıfırdan.Boş ciblə.

- Okey,buyurun onda boşaldaq cibləri.

Hər üçü cibləri boşaldıb Cəlilə ötürdülər.

-Şəhərin ortasında sivilizasiyadan kənar qaldıq. Bəlkə doğum evinə gedib ordan start eliyək hə? Nə vaxtsa kitab zad yazsaq, maraqlı olsun dəliliyimiz.Ha-ha-ha.

Cavidin bu fikrinə ürəkdən güldülər.

-Uşaqlar hava qaralmamış çıxaq yola. Sağollaşmaq vaxtıdı...

Qucaqlaşdılar, kövrəldilər də hətta. Cəlil gözünü silə-silə titrəyən boğultulu səsiylə söydü də onları. Eyvaz son əlavəsini edəndə gün batmaq üzrə idi...

-Dostlar, unutmayın kim nə vaxt istəsə qayıda bilər. Allaha əmanətsiz. Özünüzdən muğayat olun. Hər birinizə bu yolda çoxluca kəşflər və uğurlar. İndi isə hərəniz bir istiqamətə gedin. Nə istəyirsiz edin. Necə istəyirsinizsə yaşayın. Əsas odu təslim olmayın çətinliyə. Baxmayın bir birinin arxasınca. Getdik...

Uçurumları sevənlərin qanadları olmalıdı (Nitşe)

Sentyabr olduğundan havalar meyxoş keçirdi. Yağışlar payızın gəlişini yada salırdılar. Bəzənsə külək vıyıltısı əsrarəngiz fon yaradırdı Bakı üçün.

Bütün gecəni qısa fasilələrlə naməlum istiqamətə addımlayaraq keçirtmişdi Eyvaz. Tanımasınlar deyənə saçını qırxdırmış, qara eynək taxmışdı. Dan yeri söküləndə ətrafındakı mənzərəni aydın etdi. Sovetski məhəlləsində idi. Əllərində çanta məktəbə tələsən yarıyuxulu uşaqların qaşqabaqlı simaları, maşınlarını işə salanların səhərin sehrini qovan səs-küyləri, təndir çörəyinin burunu dolduran ləziz qoxusu, bir-birini könülsüz salamlayan qonşuların yola vermək prinsipində dil ucu hal-əhval tutmaları. Hər şey,hər şey o an Eyvaz üçün doğma idi. İlk dəfə gördüyü,tanımadığı nostalgiyamı,ya həyat eşqimi deyək bir hiss bürümüşdü bədənini. Bir azda acımışdı.Bu gündən çox "ilk"lərlə rastlaşacaqdı. Buna hazır olmasını heç kim soruşmayacaqdı. Rəqəmlər, pullar, faizlər, seyflər, açarlar, depozitlər, çeklər, ödəmələr, sazişlər, yatırımlar, dollarlar, avrolar, manatlar beynini yormayacaqdı.

Səhər açılandan oturduğu səkidəcə yuxulamışdı. Yanından ötən maşının siqnal səsinə ayıldı. İlk işi qarnını doyurmaq idi. Təndir çörəyi satılan pəncərəyə yanaşdı.

-Salam.Bir dənə təndir çörəyi verə bilərsiz mənə?

-Əleykə Salam, a bala. Baş üstünə,buyur nuş olsun.

- Amma verəcək pulum yoxdu sizə, dayı. Yəni ümumiyyətlə pulum yoxdu.

- Eybi yox oğlum, çörəkdi, qızıl deyil ki? Olanda verərsən,nuş elə.

- Çox sag olun, dayı.

İlk addımın uğuruna sevinib çörəyi iştahla yeyirdi elə dükanın yanındaca. Bunu görən çörək bişirən həmin kişi ona yanaşıb soruşdu:

-Oğlum, qarışmaq kimi çıxmasın işinə, sənin evin-eşiyin yoxdu ki,yavan çörəyi küçənin ortasında yeyirsən? Deyim ki,alkaşsan, yox deyə bilmərəm, çünki oxşamırsan.Dilənçisən,nəişəxorsan,yox onlara da oxşamırsan.Bəs?

Kişinin bu gözlənilən, eyni zamanda fəlsəfi-psixoloji sualında tox adam çaşardı, o ki qaldı ac. Özlüyündə bir anlıq sualı analiz etdi Eyvaz. Hm,deməli mən alkaşa,dilənçiyə,narkomana oxşamırammış. Onların məgər konkret üz cizgiləri, rəngləri, köynəkləri, ya nəbilim çörək yemək tərzləri var? Deməli, küçənin ortasında yavan çörək yeyən kəs alkaş, dilənçi, narkoman şübhəsiylə qarşılanır.

-Bəs kimə oxşayıram, ay dayı?

-Bilsəm, səndən soruşmaram ki...

-Nə alkaşam, nə dilənçi, nə də narkoman. Səyyaham. Bir azdan digər səyyah dostlarımla görüşəcəyəm. Pulum qurtardığından sizdən çörəyi havayı istədim, amma pulunuzu mütləq çatdıracağam.

-Oğlum, pula görə demədim. Maraqlı gəldi soruşdum. Demək səyyahsan, lap yaxşı.

-Hə səyyaham. Azərbaycanı qarış-qarış gəzirik.Tarixi memarlıq abidələrini, qədimi evlərin xronologiyası ilə maraqlanırıq...Çörəyə görə çox sağ ol dayı, icazənlə indi getməliyəm.

-Buyur, buyur, sağ-salamat. Allah amanında...

***

Cavid skamyada yatmışdı. Burnunu deşən iyə oyandı. Üfunət qoxusundan ürəyi ağzına gəldi. Yanında uzanan bomjdan gəlirdi bu "ətir". Xoruldayırdı, fısıldayırdı. Cırıq-cındır, rəngi getmiş, üstündə Bakının bir kilodan çox çirki olan pencəyini çəkib rahat-rahat yatmışdı. Arada arağın iyi də beyinə işləyirdi. Cavid isə iyləri ayırd edərək heç vaxt bu qədər yaxın olmadığı,yuxusuna belə girməyən bu cəmiyyətdən təcrid olunmuş kabusu maraqla izləyirdi. İyə öyrəşə-öyrəşə, izləməkdən də bezdi. Durub rahat ordan, ondan uzaqlaşa bilərdi, amma kəşfindən uzaqlaşmaq qərarında deyildi. Oyatmaq istədi...Risk etmək istəmədi.Qorxu-qorxu yaradır. Ən yaxşı müdafiə isə hücumdu. Birdən oyadar, o da hürkər, bıçaq çəkər, daş götürər, ya elə yumruğunu işə salar. Ya da batırar altına. Elə bu növbəti iy bəs edər ki, ürəyi getsin. Onsuz da güclə dözür havasına. Gözləməyə qərar verdi. Ötüb keçənlərdən saatı soruşurdu ki, zamanı itirməsin...Günorta saat 3-də oyandı qonşusu. Çirkdən codlaşmış saç-saqqalını, qaşqabaqlı simasını, əyri burnunu, çapıqlı alnını Cavid indi daha rahat görürdü. Bir az diksindi də bu simanın xofundan. Cavidə gözaltı baxdı. Cavid onun durub getməsini gözləmədən soruşdu:

-Sizin yeriniz olduğunu bilmirdim.Narahat etdiyim üçün üzr istəyirəm.

Bomjdan səs çıxmadı."Astra" siqaretini sümürürdü və elə təsir yaranırdı ki, deyəsən heç Cavidi eşitmirdi. Bəlkə də eşitmək istəmirdi. Cavid də bunu sınamaq istəyirdi.

-Adım Caviddi.Bəs sizin?

Bomj isə deyəsən danışmaq niyyətində deyildi. Cavid isə əl çəkmirdi.

-Nə üçün cavab vermək, danışmaq istəmirsiz? Qorxmayın məndən sizə pislik gəlməz. Sadəcə danışmaq istəyirəm sizinlə.

Bomj düz Cavidin gözünün içinə baxaraq xışıltılı səslə dedi:

-Nə istəyirsən?

-Dedim axı, sadəcə danışmaq.

-Danışmağa adam tapmadın?

-Hmm..ımm, onlarla söhbətim tutmur.

-Səncə bir bomj sənə nə haqda danışa bilər?

-Düzünü deyim ki, elə bilmədiyim üçün mənə maraqlı gəlir. Nə haqda danışa bilər?

-Nədən? (Gülür.Gülüşünü öskürəklər əvəz edir). Nə haqda, öhü-öhöö... Arağın hansı dükanda neçəyə satıldığından, hansı məhlənin zibil yeşiklərində yemək çox olduğundan. Hansı parkın, hansı skameykasının daha rahat olduğundan, kimlərin məni söydüyündən, nifrət etdiyindən danışım?! Mən dilənçi deyiləm, olmamışam da heç vaxt. Uğur centlimeniyəm. Məni skamya doğub, park böyüdüb. Araq yorğanım olub ki,donmayım. Siqaret də dostum...

-Bəs qohumun, filan...

-Qohumum? Ude oturub orda.(Sabirin heykəlini işarə edir) Odu qohumum. Öhö-öhöö...Yeyirsən?

Pencəyindən çıxartdığı bulkanı bölüb uzadır Cavidə. Cavid artıq iyrənmirdi. Aldı bulkanı.

-Çox sağolun, acımışdım...

-Ye, doyur qarnını. Adımı bilmirəm, hamı Alik deyir mənə...

Bulkanı yeyə-yeyə ətrafa baxdı.Sabir bağında olduğuna indi fikir verirdi.

***

Toğrul hay-küy səsinə ayıldı. Yadına düşdü ki, dünən gecə burda yatmışdı. Göydələn tikilirdi bu sahədə. Fəhlələr,əllərində çertyoj olan yekəqarın qalstuklu kişi ora-bura qaçışırdılar. Toğrula fikir verən də yox idi...O isə öyrəşmişdi göz

önündə olmağa.Taxtaların birinin üstündə oturub tikintiyə tamaşa etməyə başladı. Ona elə maraqlı gəlirdi bu mənzərə, sanki Hamlet tamaşasına baxırdı.

-A bala, sən niyə oturufsan orda?

Bu qəfil səs mənzərəni korladı.

-Oturmuşam.

-Bə mən nə deyirəm? Soruşuram,niyə oturufsan da?

-Neyniyim bəs?

-Məndən soruşursan? Nə iş tapşırıblarsa, onu gör də.

-İşi kim tapşırır ki?

-Qardaş, məzələnirsən mənlə? Kim olacaq,Tahir müəllim.

-Allah eləməsin, sadəcə bu gün gəlmişəm bura, işləməyə. Ona görə heç kimi tanımıram hələ. O dediyin Tahir yekəqarın, qalstuklu olandı?

-Belə desənə. Hə, odur qardaş. Yanaş ona. Özüylə söhbət elə. Burda boş-boşuna oturmaq olmaz e, qadan alım.Söz gəler.

- Oldu, çox sağ ol...

Tahir tankerə oxşayırdı.Tahirləri heç vaxt sevmirdi Toğrul. Məktəb, universitet vaxtlarında çox Tahir görmüşdü. Ümumilikdə Tahir obrazı Toğrulun beynində murdar, zigilli, ağzıcırıq, xəbərçi, axmaq biri kimi formalaşmışdı. Bu da növbəti Tahir...

-Salam,Tahir müəllim.

Eynəyini burnunun ucuna kimi endirib çertyojda xətkeşlə nəsə ölçüb-biçirdi Tahir. Salamı başını tərpədərək alıb soruşdu:

-Eşidirəm.

-Mən bu tikintidə işləyə bilərəm?

-Kim göndərib səni bura?

Nə axmaq sual idi bu. Hətta bir anlıq təəcübləndi də bu sualdan. Tikinti deyil bura? Fəhlə işləmir burda? Bəs bu nə sualdı? Eşşək işində də tapış rolu var? Niyə bütün Tahirlər belə axmaq olurlar görəsən?!

-Heç kim göndərmiyib. İşləmək istəyirəm sadəcə.

-Nə bacarırsan? Qaynaq,filan məsələn...

-Yox qaynaq etməyi bacarmıram, amma belə fəhləlik edə bilərəm. Ehtiyacım var işə.

-Yaxşı,onda gedirsən dördüncü briqadaya kömək eləməyə. Ude, ora...Görürsən kranın yanında.

-Hə,hə görürəm.

-Ay sağol, get ora. Orda Vaqif var. Ona de ki, təzə işçiyəm, pal-paltar versin sənə. Sabah da yaxınlaşarsan mənə, adını salarıq kitaba. Ad demişkən, adın nə oldu?

-Oldu Tahir müəllim. Adım Toğruldu.

-Lap yaxşı Toğrul. Di get iş başına. Uşaqlarla da mehriban olun...

-Oldu müəllim.

Tahirin xoş danışığı Toğrulun ona qarşı fikrini dəyişdirməmişdi. Dəyişə də bilməzdi. Lap Tahir beş barmağını bala batarıb,Toğrulun ağzına soxsaydı da, təsiri olmazdı.Toğrul üçün o növbəti cındır Tahirlərdən biri idi.

Biz özümüzü doğub, özümüzü öldürəcək qədər qəddar cəlladlarıq!

Tüfürmüşdüm dünənə.

Qorxum idi gələcək.

Bu günümün sürünmək vərdişində ümüdə nifrətlə ümüd edərək,özümü inandırırdım.

İnandırırdım ki,o dönəcək.

Ölüm hökmüm doğuluşda oxunsa da,tarixi sürpriz olacaq.

Yazıq düşüncə...

Görəsən fikirlər nə vaxta kimi onu yoracaq?

Daha neçəsi "bağışla" nidasıyla qəlbə toxunacaq.?

Bu qış görəsən neçə sərçə donacaq?

Gözləmə,gələcək onsuzda gələcək.

Əllər göyə açılanda,gözlər yolları sevəcək.

Hərədən bir təsəlli:

-O dönəcək!

Qış,bahar,payız da,bitəcək.

Yenə yagış,yenə külək əsəcək.

Səni küləkmi gətirəcək?

Yoxsa o damı ümüd verəcək pıçıltısıyla:

-O dönəcək...

Çürük nərdivanın pillələrini qalxdiqca qəribə hisslər keçirirdi. Sevinirdi, qəmlənirdi, həyacanlanırdı. Aşağıda qalan uşaqlıq, gənclik, qorxular, pis günlər, problemlər qalxdıqca uzaqlaşıb itirdilər. Çoxdan idi bu nərdivanı qalxırdı. Damda onu xoşbəxtlik gözləyirdi. Buna əmin idi və düşündükcə gülümsəyir, qanad açıb uçmaq istəyirdi dama. Pillələri 1-1, 2-2 çıxırdı və...Bu da dam! Dondu sonuncu pillədə, siması dəyişdi gördüyü mənzərədən. Damda başqa bir nərdivan var idi. Necə? Demək kimsə ondan qabaq artıq tapıb onun xoşbəxtliyini!? Bağırdı:

-Eyy, kimsən? Hardasan? Ver mənim xöşbəxtliyimi! Qaytar, eşidirsən Allah? Verin xöşbəxtliyimi!

Ayağını zərblə vurduğu pillədən cırıltı eşidildi. Nərdivan ikiyə bölündü...

Öz qışqırığına oyandı Eyvaz.

-Nərdivan...hanı? Sağam? Yuxu imiş...Lənət olsun!

Yağış başlamışdı. Eyvaz növbəti gecəni xarabalıqda keçirirdi. Baxımsızlıqdan uçulmuş bir evin xarabalığında. Bir tərəfdən zəhlətökən yağış, bir tərəfdən də qorxduğu yuxu yatmağa mane olurdu.Təzəcə yuxuya getmişdi ki yaxınlıqdan gələn hay-küyə, gülüş səslərinə oyandı. Deyəsən bu xarabaya gəlirdilər. Xarabanın da sahibləri olurmuş.

Üç nəfər idilər. İki qadın və bir oğlan uşağı. Qaranlıq olduğundan siluetləri güclə seçilirdi. Burda kiminləsə rastlaşmağa öyrəşmədikləri hiss olundu Eyvazı görən an. Qadınlardan biri məlum olmayan dildə nəsə qışqırdı. Söyüşə oxşayırdı.Eyvaz da belə görüş gözləmədiyindən qeyri ixtiyari:

-Sakit olun, qorxmayın.Yatmağa yerim olmadığından bura girmişəm. Sizin yeriniz olduğunu bilmirdim. Həqiqətən bilmirdim...

Qadınlarsa nəsə ucadan elə hey danışırdılar. Uşaq isə sakitcə durub Eyvaza tərs-tərs baxırdı. Eyvaz indi anladı ki,bunlar qaraçılardı. Qadınlardan biri nəhayət öz dilimizdə soruşdu:

-San kimsan?

-Adim Eyvazdı, yerim olmadığından bura girdim. Gedərəm indi, bağışlayın...

Qəfildən uşaq Eyvazın əlindən yapışıb "Aqil,Aqil" deyərək ağlamağa başladı. Sual verən qadın uşağı dartıb qucağına alıb nəisə pıçıldadı qulağına, sonra üzünü Eyvaza tutaraq:

-Saani atası bilib .Atası adı Aqil di. Ona oxşadıb sani.

Eyvaz heç nə deməyib xarabanın çıxışına tərəf addımladı.

-Yağış yağır Getma.Sahar gedarsan...

Qadının hərfləri kobudluqla tələffüz etdiyi bu cümlə Eyvazın üzünə təbəssüm gətirdi...

Səhərə kimi yatmadılar. Nə Eyvaz, nə də o biri iki qadın. Söhbət etdilər bütün gecəni. Uşaqsa Eyvazın qarnını qucaqlayıb yatmışdı. Eyvaz ilk olaraq onun adıyla maraqlandı. Adı Basat idi. Nağıl qəhrəmanı şərəfinə belə qoyubmuş atası adını. Qadınlardan biri uşağın anası Banu,digəri xalası Züleyxa idi. Yorulmadan həyat hekayələrindən danışırdılar.Köçəri tayfalarından, qohumlarından, adət-ənənələrindən və s. və i. Bakıda tanışları yox idi.Qohumları isə Yevlaxda köç salmışdılar. Bakıya da Aqilə görə gəlmişdilər.Hələ Yevlaxda olanda xəbər gəlib ki,bəs Bakıya pul qazanmağa gedən Aqil tutulub. Banu da Basatı götürüb, Züleyxa ilə birgə qaçıblar bura, amma Aqilin yerini-yurdunu, yəni hansı türmədə yatdığını tapa bilməyiblər. Gündüzləri dilənçilik edir, fala baxırlar. Gecələri də bu xarabada keçirirlər.

Banu qaraçı olmasına baxmayaraq çox gözəl qadın idi. Zil qara, belini örtən saçları, yaşıl gözləri, uzun kiprikləri, xırda burnu, nazik dodaqları, topuğa kimi ətək, şalın altından olmasına baxmayaraq hiss olunan uzun ayaqları bu gözəlliyə işıq saçırdı. Eyvaz özlüyündə düşünürdü. İki cavan qadın və Bakı. Çaqqalları, biqeyrətləri, anasının əmcəyini kəsənlərlə dolu bir şəhərə qarşı necə dözürlər, namuslarını necə qoruyurlar? Dözməyib bu sualı Banuya da ünvanladı.Banu gülümsəyib,başını aşağı salaraq dedi:

-Tualeta gedəndən sonra yuyunmuruq. Zorlamaq istayan iyrənir əl çəkir,amma asəbini bizi döyməkla çıxır.Bıçaqlayanda olub...

Bankda, öz ofisində, kondinsioner altında, rahat kreslosunda xumarlananda, əli pulla, gözü katibəsinin ora-burasıyla oynayanda belə reallıqları ağlına da gətirməzdi. Desəydilər də inanmazdı, amma indi acılarla dolu, taleyini itirmiş, həyatla mübarizədə hər cür əzablara dözən bu dişi şir təsiri yaradan qadının danışdıqları qarşısında susmaqdan başqa əlindən heç nə gəlmirdi. Banu danışdıqca Züleyxa onun hər cümləsinin həqiqət olduğuna işarə edərək, başını

tərpədirdi. Eyvaz artıq eşitmirdi qadını, bayaqdan bəri gözünü çəkmədiyi bədənini, üzünü, dodaqlarını da görmürdü. Harasa getmişdi. Harasa, lap uzaqlara. Ulduzlardan da dərinə qonmuşdu. Ağrı var idi içində. Harası ağrıdığını isə tapa bilmirdi.Bu an Aqilə, Züleyxaya və hətta Basata da paxıllıq edirdi. Aqilə,ona görə ki, bu cür gözəl, mərd arvadı var idi. Adam da heç bu cür qadını qoyub Bakıya gələr? Görəsən Aqil necə oğlandı? Yəqin yaraşıqlı olar...Hə, yaraşıqlıdı ki, Banu ona görə hər əziyyətə dözür də. Xasiyyəti də gözəldi. Bir sözlə bu cür qadını hərtərəfli təmin etməyi bacaran biridi. Hmm, ay Aqil, Aqil, hardasan görəsən?

Züleyxaya da Banunun bacısı olduğundan paxıllıq etdi. Elə Basata da Banunun oğlu olduğundan. Nədir, deməli eqom Banuya bağlıdı? Yox Eyvaz, bu gic-gic fikirləri çıxart başından. Sənə Banu filan lazım deyil. Bankir Eyvaz kimi sənin üçün ölən belə Banuları yada sal. Qəribədi, varlı olmağın da özünəməxsus və məsuliyyətli çərçivəsi olur. Bu çərçivədə sən Eyvaz Əliyevsən. Ancaq ağıllı söz danışan, ağıllı düşünən, ağıllı iş görən ağıllı iş adamı. İstədi-istəmədi qalstuk taxan, kostyum geyinən, əti bıçaqla kəsib, çəngəllə yeyən, ürəyinə əmr etməyi bacaran, işçilərinə cins fərqi qoymadan nəzarət edən etiketli müdür. Onun ixtiyarı yoxdu çərçivədən çıxmağa, hətta boylanmağa da. Əks halda özünəhörmət hissi vicdanına şikayət ərizəsi göndərər. O axı kübar ailə uşağıdı. O axı bahalı oyuncaqdı. O axı proqramlaşdırılmış robotdu. O axı sahibkardı. O həyatdan şikayət edə bilməz. Buna ixtiyarı yoxdu. Bu ixtiyarı ona verən olmayıb. Səhər açılandan gecə düşənə qədər yazılmış rejimi olub. Özüylə görüşməyə vaxtı olmayıb. Yatağına girmək istəyən xanımlarla növbəsindən tutmuş, onu evləndirmək istəyən valideynlərinin hər gün bir qızı ona tərifləmələrinə qədər hər kəsdən, hər şeydən doymuşdu...

-Ayvaz,bilırsan neca istayıram qaçım bu ölkadan.

-Hara?

-Əşi,hara oldu. Basatı da götürum qaçım. Ayvaz, san heç başqa ölkalarda olmusan?

Eyvaz demək olardı ki, uşaqlıqdan bütün dünyanı gəzmişdi. Lap əvvəl valideynləri, sonra tək, sonra iş yoldaşları, sonra dostları, sonra məşuqələri ilə gəzmədiyi ölkə, şəhər qalmamışdı. Ən sevdiyi ölkə isə İtaliya idi. Böyük Bakıya bənzədirdi bu ölkəni, amma Bakıdan fərqli orda çox şey önə qaçmışdı.Bakıdan fərqli İtaliya və digər ölkələrdə insanlar bir-birinə gülümsəyirdilər. Eyvaz bu gülüşə də paxıllıq edirdi. Nədi? Bunların dərdi, xəstəsi yoxdu? Əsəbləri belə sakitdi? Pulları belə çoxdu? Yadına Türkiyədə bir ağsaqqalın bu haqda ona danışdığı maraqlı hekayə düşdü.

Gülənlər ölkəsi

İlk dəfə o ölkəni Magellan səyahət etmişdi. Elə özü kəşf etmişdi bu maraqlı ölkəni. Adi insanlardan fərqli olaraq bu ölkədə hamı gülürdü. Təzə doğulmuş körpədən tutmuş,ayağı gorunda olan qocaya kimi. Onları ağlatmaq olmurmuş, əsəbləşdirmək olmurmuş. Hətta Magellanın dənizçilərindən biri dözməyib, onlardan birini ona güldüyünə görə kötəkləmişdi də, amma kötəklənən adam ağrını qəh-qəhəylə çəkir, gülməyi beyinə işləyirdi. Hər şeyə, hər sözə, hər kəsə gülən bu insanlarla danışmaq, nəysə öyrənmək mənasız, həm də çox əsəbləşdirən iş idi. Çox sakit təbiətli Magellan özü də əsəbləşmişdi bu xaos qarşısında.Nəhayət gülən insanların içindən bir nəfər, dərisi sümüyünə yapışan, budaq nazikliyində olan qoca çıxdı. Magellana yanaşdı. Gülmürdü.Tam ciddi, eybəcər siması vardı. Magellan ondan onların niyə güldüyünü soruşdu. Kişinin cavabını Magellan ölənə kimi unutmayacaqdı.

-Onlar üç şey bilmirlər. Pulun, pisliyin və ağlamağın nə olduğunu. Ona görə həmişə gülürlər.

-Hə,olmuşam...

-Hansı olkalarda?

Eyvaz çörək satan kişiyə danışdığı səyyah yalanını məcburiyyət qarşısında Banuya da danışdı...

***

-Vurmaqla aran necədi?

-Belə də toydan-toya. Dostlarla ayda-ildə bir dəfə filan, belə...

-Onda sən içməzsən.

-Olmaz içməyəsən? Yəni öz işindi əlbəttə, amma çox içirsən deyəsən.

-Cavid, mən kefimdən içmirəm.Gecə donmayım deyə içirəm. Yorğanımdı mənim araq.

Cavid Alikə uşaq evində böyüdüyünü uydurmuşdu. Heç kiminin olmadığını demişdi. Alikin vecsizliyi, dərin çuxurlarda parlayan gözləri isə həmişə harasa görünməzliyə baxır, ordan ilhamlanırdı yaşamağa. Cavid elə bu dəqiqə Aliki anası kimi doğa bilərdi, onu xilas edə bilərdi bu zibildən. Bunu düşünməkdən zövq alırdı, amma tələsmək istəmirdi. Özü istəyirdi uçurumları saymağı. Orda göyərçin görmək idi məqsədi. Alik onun kitabı idi. Onu oxumamış rəfin ən yüksək nöqtəsinə qoymaq istəmirdi. Bəlkə də bezdirici suallar Alikin heç xoşuna da gəlmirdi, amma çox təmkinlə hər suala cavab verirdi. İxtisasca psixoloq olan Cavid də çox məharətlə təsir göstərə bilirdi "xəstəsinə". Hiss edirdi ki, bu bomjun həyat tarixçəsi haqda film çəkilsə, ilin filmi nominasiyasının qalibi olar. Əsas məsələ isə Aliki şübhələndirmədən duyğularını rəqs etdirib, danışdırmaq idi.

Parkda kalan yemək-içmək var idi. Yarımçıq yeyilən dönərlər, dişlənmiş bulkalar, bir-iki qurtum içilmiş şirələr, qazlı sular qarınlarını doydurmuşdu Cavid

və Alikin. Düzdür, əvvəl-əvvəl iyrənsədə kiminsə artığını yeməkdən aclıq ona güc gəlmişdi. Artıq o da şəhərin kabuslarından biri idi.

Axşam düşürdü. Alik yarımlitrlik arağı başına çəkir, fısıldayır, uzun-uzadı öskürür və davam edirdi içməyə. Arağı ona yaxınlıqdakı kafe verirdi. Onun-bunun qabağından qalan araqları şüşələrə süzüb, Alik üçün saxlayırdılar. Günə ən azı 1-2 şüşəsi var idi.

Ağzını silə-silə, oxuyaraq gedən bir kişini göstərərək dedi:

-Bilirsən kimdi bu?

-Hm,yox. Kimdi ki?

-Ad...Adi..,yox-yox Asə...Əşi yadıma düşmür. Mügənni var idi o vaxt, onun oğludu. Bədbəxt havalıdı. Havalı da olsa əla oğlandı.

-O da bomjdu?

-Yox bomj niyə? Evi-eşiyi...Prosta havalıdı da.Hər gün burdan oxuya-oxuya keçir, camaatı salamlayır. Axmaqdı, hər nədi, amma o dəqiqə bilinir ki, tərbiyəli, mədənidi.

-Hardan bilinir?

-Necə yəni hardan? Gör bir yolu necə gedir...Onun yerişinə bax. O cür yerişli insanlar həmişə yüksək mədəniyyətə malik olurlar.

-Bunları hardan bilirsən?

-Bomj olaraq doğulmamışam hər halda.

-Bəs nə gətirib səni bu vəziyyətə?

-Ayaqlarım gətirib də yəqin. (Gülümsəyir bu cümlə ilə)

-Baş istəməsə, ayaq getməz.

-Bəs baş nə etməlidi, əgər önündə divar varsa? Hansı məktəbli böyüyəndə bomj olmaq arzusunda olur?!

-Məncə...

-Sənin fikrin mənə maraqlı deyil. Sən özün də, bu cəmiyyət, bu insanlar, bu şəhər də mənə maraqlı deyil!

-Bəs nədi sənə maraqlı olan? Hər axşam kafeden verilən şüşələrin sayı? Bu skameykalar? Bu murdar həyat?

-Afərin. Düz tapdın. Mən içməyə görə yaşayıram. Ölənə kimi də içəcəyəm! Yaşamağımın mənası, ölmək istəməməyimdi.

-Hm,deməli ümüdün var da...

-Nə? Ümüd? Güldürmə, sən Allah...Kimdi sənün ümüdünü .. (söyüş söyür) Yedirmə mənə təsəlli Ümüd,ümüd,ümüd...Sonra nədən yapışırsız çətinə düşəndə? Dayan, özüm deyim. Allahdan?! Nə etmisən Allah üçün, nə etmisən ümüd üçün? Budu ümüdün? Bu taxta skamyada sabaha sağ çıxmaqdı ümüd? Ya insanların səni sevməsinədi ümüd? Mən çoxdan ölmüşəm. Ölmüş insanın isə ümüdü olmur!

-Günahkar kimdi bəs?

-...Kimlər deyil ki...Bilirsən, Cavid?! Çox incidib bu şəhər, bu insanlar məni. Ora bax...(Barmağıyla evlərdə yanan işıqları göstərir) Orda xöşbəxt adamlar yaşayır. Başlarının üstündə dam var. Anaları, ataları, övladları, ərləri, arvadları var. Evlərində yemək bişir, süfrə açılır, işıq yanır, uşaq səsi, böyük məsləhəti eşidilir. Özləri bəlkəm də bunun fərqinə belə varmırlar. Çox adi şeydi bu, onlar üçün. Hə, nə olsun damdı, ailədi? Yox, Cavid onların xöşbəxliyi öz əllərindədi, amma bəzən qürurdan, bəzən paxıllıqdan, bundan istifadə etmirlər. Onlar istənilən an bir sözlə həyatlarını gözəlləşdirə bilərlər. Çünki dam var başları üzərində və bu dam anlayışı onları ailə olaraq qorumağa qadirdi. Mənim üstümdə dam görürsən?! Hamıdan qırılıb ürəyim. Yalvarmışdım doğsun məni anam ki, günəşin doğuluşuna baxım? Hər gün dava-dalaş. Hər gün eyni ssenari. Atdılar detdoma (Uşaq evi .red.).Tanımadığım Maya, Svetlana analıq etdilər mənə...Onda da

hamının yanına gəlirdi valideynləri. Ayda-ildə bir dəfə olsa da gəlirdilər. Mənimsə 13 il yanıma heç kim gelmədi. O vaxtan ümüdə nifrət etdim. Ordan bir başa hərbi xidmətə yollandım. Hərbi xidmətim zamanı da cəmi bir dəfə detdoma məktub yazdım, başlığı hələ də yadımdadı "Əziz analarım Maya və Svetlanaya".. Qayıtdım xidmətdən. Çilingər işləməyə başladım. Bu işi də, Maya ana tapmışdı mənə. Getməyə bir yerim olmadığından, gecələri elə emalatxanada qalırdım. Bir il sonra, indiki İncəsənət Universitetinə daxil oldum. Öz gücümə gecələri oxuyub, məqsədimə çatmışdım. Bilirsən necə sevinmişdim o gün? Bir tort alıb detdoma getdim.Orda qeyd eledim analarımla bərabər...Teatr aktyoru fakultəsində idim. Sağ olsunlar arada epizodik rol verirdilər tamaşalarda. İkinci kursda oxuyanda detdomdan tanıdığım Sara ilə evləndim. Kirayə ev tutduq Basində...Qızımız oldu. Adını Arzu qoyduq...Arzumuz idi bizim. Cavid, təsəvvür eliyə bilməzsən uşaq necə qəşəng idi...(Közü əlini yandıran siqareti atıb,araq şüşəsini başına çəkir). Dördüncü gün idi. Gecə tamaşa məşqim var idi. Sara ilə uşağı Mayagilə aparıb qoydum ki, evə gec gələcəyəm...Uşaq ağlayır,dayanmır...Sara da məcbur qalıb, uşağı da götürüb evə qayıdır...Məşqdən gecə 2-də çıxdım. Evə gələndə isə... (Dodaqlarını bir-birinə sıxıb, fısıldayır. Gözlərindən axan yaşlar əlindəki boş şüşəyə tökülür)... Yanırdı ev. Ətrafda yanğınsöndürənlər, camaat, qışqırıq səsləri, qarışıq çağırışlar, hönkürtülər...Bizim üstümüzdəki mənzildə yanğın baş vermişdi. Alov bizim mənzilə keçəndə Sara ilə Arzu yatmış olublar. Oyananda isə...Oyananda alov güclənib. Sara Arzunu da qucağına alıb, atıb özünü pəncərədən...Bir Allah bilir nə çəkirəm Cavid, bir Allah bilir...Çıxdım universitetdən, işdən...Küçələrə üz qoydum, küçələrə sığındım...Aldılar əlimdən ümüdümü də, Arzumu da! Nə öyrəşə, nə də unuda bilirəm. Arada bu unutdurur.(Əlindəki şüşəni göstərir) Harda dəfn olunduqlarını da bilmirəm...Bilsəydim də,heç vaxt gedib onları orda...Cavid Aliki qucaqlayır.

Alik danışmışdı. Cavid onu danışdırmışdı, amma...Peşman idi indi. Bu yaralarla dolu olan insanın yaralarını qopartmağa məcbur etdiyinə görə peşman idi. Amansız həyat səhnəsinin Alik adlı personajı Cavidi ağlatmışdı. Nəsə demək istəyir, ürək eləmirdi. Nə desin? Nə deməlidi? Hansı söz, cümlə, hekayə təsəlli ola bilərdi? Heç bir söz, heç bir cümlə. Alikə təsəlli olacaq söz icad olunmamışdı.

Bu zahirən tör-töküntü görünən şəxsiyyət əslində çox güclü iradə, dözüm və ürəyə malik idi. Bəli, şəxsiyyət. Çünki, Alik həqiqətən bir adi insanın təsvir edə bilməyəcəyi çətinlikli həyat dramı qəhrəmanı idi. Bu gün burda ölsə idi, heç kimin vecinə də olmayacaqdı. Nə o qırmızı kirəmitli damın altında yaşayanların, nə günlərini bu parkda sevişərək keçirən aşiqlərin, nə də hər gün ona araq verən kafe işçilərinin. Nə də olmasa onlar üçün Aliksiz həyat Alikli həyatdan fərqlənmir. Kral öldü,yaşasın kral məsəli kimi. Bomj öldü, yaşasın bomj. Nə çox Bakıda Aliklər...

***

Artıq üç ay idi ki, Toğrul bu göydələn tikintisində fəhləlik edirdi. Rayondan gələn dörd nəfər iş yoldaşı ilə yataqxanada qalırdı. Eyvazdan və Caviddən fərqli olaraq onun vəziyyəti daha yaxşı idi. Normal yeyir-içir, çarpayıda yatırdı. Heç kimə ehtiyac üçün ağız açmırdı. Aldığı maaşla keçinə bilirdi. Hərdən axşamüstülər təkbaşına şəhəri gəzməyə çıxırdı. Özünə qapanmaq üçün kifayət qədər vaxtı olurdu. Heç olmadığı dalanlar, tinlər, küçələr isə bitib tükənmirdi. Bəzən sahibi olduğu mağazalara uzaqdan baxır, gülümsəyirdi. İndiki görkəmində öz dükanına girib nəsə alsaydı da tanımazdılar onu. Gözlər sanki beyinin idarə etdiyi fotoaparatdı. Kimi çəkmək istəyir onu görür. Adi, sıradan bir alıcını "çəkmək" üçün o fotoaparatın vaxtı olmur...

İki gün idi bir kafeyə dadanmışdı. Bu cür, elitadan çox uzaqda olan kafelərdə demək olar heç olmamışdı və təzə gördüyü mühitdə özünü tapmışdı sanki. Tapıntılarından biri də,qaldığı yataqxananın ikinci mərtəbəsində yaşayan Günay idi...

Günay Qubadan Bakıya təhsil almağa gəlmişdi qardaşıyla bərabər. Toğrul ilk dəfə onu küçədə görmüşdü. Sarışın, göy göz, ağ sifət bu qız Toğrulu özünə bənd etmişdi elə o ilk dəfədən. Elə o ilk dəfədən Toğrul Günayla tanışlıq üçün

bəhanələr axtarırdı. Çox vaxt saatlarla birinci mərtəbədə, blok girişində dayanar ikinci mərtəbədəki yaşıl qapının açılmasını gözləyərdi. Əzbərləmişdi bu qapının səsini. Qapı açılan kimi pilləkanlara qaçardı ki, Günayla üzbə-üz çıxsın. O yuxarı, Günay aşağı düşərdi. Günay blokdan çıxan kimi isə cəld aşağı düşər, nəzərləriylə onu yola salardı.Yaxınlaşmağa ürək eləmirdi.Hər halda Toğrulun düşüncəsində Günay kimi bir qızın yolda kiminləsə danışması, kiminləsə tanış olması mümkünsüz bir şey idi...Nəsə başqa bir yol olmalı idi. Bir tərəfdən də qardaş amilinə böyük önəm verənlərdən idi Toğrul. İstəməzdi Günayın qardaşı onu səhv anlasın.

Adəti üzrə yenə yatıb qalmışdı. İş yoldaşı Nəriman qapıdan "Dur ay Toğrul, gecikəcəksən" -deyib qışqırdı və qapını çırpıb, getdi. Azər və Rəşad da artıq getmişdilər. Toğrul birtəhər yataqdan qalxa bildi.

Qapını arxasıyca açarlayıb, açarı həmişə gizlətdikləri ayaqaltı əskisinin altına qoydu. Pilləkanları 2-2 düşüb,blokdan çıxdı...Əlini cibinə atdı siqaret üçün və siqareti yatağının altında unutduğu yadına düşdü. Evə çıxmağa tənbəlik etdi. Odur ki,dükana getməyi qərarlaşdırdı. Dükana girəndə Günayı gördü orda. Ağ köynəkdə, qara qısa ətəkdə. Saçını yığmışdı arxadan...Toğrul gözünü çəkə bilmirdi bu gözəllikdən. Satıcı qadın narazı halda nəsə deyinir, Günaya nəsə başa salmağa çalışırdı. Günay isə çox sakit səslə satıcıya cavab verirdi. Pərt olmuş, bir az da əsəbi siması var idi. Satıcı qadın isə get-gedə səsini ucaldırdı. İndi aydın başa düşülürdü onun dedikləri. Günaygili dükana borclu idilər və borclarını ödəməyə söz verdikləri tarix keçdiyindən satıcı qadın Günaya heç nə vermək istəmirdi. Toğrul da əsəbləşdi bu mənzərəyə. Günay xahiş etdikcə, satıcı qadın daha da üstünə qoyurdu minnətləri, uca notları. Nəhayət bu mübahisəyə Günay son qoyub dükandan çıxdı.Toğrul satıcıya yanaşıb Günaygilin borcunu soruşdu. Satıcı tərs-tərs Toğrula baxıb, üzünü elə turşutdu ki, elə bil var-yoxunu söymüşdülər üzünə. Vərəqləri çək-çevir edib dodaqaltı mızıldadı:

-68 manat 80 qepik.

Toğrul pulu ödədi və bir siqaret qutusu da götürüb dükandan çıxdı...

Günay artıq çoxdan getmişdi...Toğrul onların borcunu ödəməklə qızın gözünə girmək niyyəti daşımırdı. Bu cür cılız insan deyildi Toğrul. Sırf insanlıq üçün etmişdi bunu. Öz-özünə düşünürdü.Birdən səhv anladılar məni, onda necə? Necə olacaq, deyərəm ki, pulunuz olanda verərsiz. Hesab edin ki, borclusuz yenə, amma bu dəfə it sifət qadına deyil, mənə. Həmin qadından fərqli olaraq mən sizi tələsdirmirəm. Nə vaxt olar verərsiz. Hə, gözəl fikirdi...

***

Eyvaz Banu ilə bərabər Banunun həyat yoldaşı olan Aqili axtarırdı. Hərdən dəli bir ehtiras gəlirdi ona. Banuyla bağlı xəyallar qurar, bu xəyallardan ləzzət alardı. Dörd ay idi bir yerdə qalmalarına baxmayaraq Banu Eyvaza qarşı soyuq idi və Eyvaz gözəl anlayırdı ki, Banu ərinə sadiq qadınlardandı. Bəlkə də elə bu sadiqlik cəlb edirdi onu Banuya...Günortalar falçılıq edər, gecələr isə Banunun kəndçisi olan Zarina gildə qalırdılar. Zarina fahişəliklə məşğul idi. Gündüzləri yatır, gecələri isə "iş" başında olardı. Banu ilə onu ancaq kəndçi, doğma torpaq anlayışı bağlıyırdı. Banunu küçədə görən Zarina çox yalvarmışdı Banu gecələri onlarda qalsın...Fahişələrin ürək yumşaqlığı barədə nə vaxtsa Eyvaz hekayə yazsaydı, hökmən Zarinadan da bir şeylər qeyd edəcəkdi. Bu aylar ərzində Eyvaz çox müşahidə etmişdi Zarinanı. Hətta 1-2 dəfə onunla yatmışdı da, amma bu qadındakı şirindil, qarşısındakı insana hörmət, optimizm bəzən fahişə damğasını unutdururdu...Gözəl idi, amma Banu qədər deyil. Bu Eyvazın dəyişməz fikri idi...

Banu Eyvaza əl falını öyrətmişdi...

-Bax,bu xətti gorursan Ayvaz?

-Hə...

-Ay sağol. Bax bu xətt həyat xəttidi. Qısa olanda ömur az olur, uzun olan çox. Bu əyri xətt isə baxt xəttidi. Bax bu isə, xoşbaxtlik xəttidi...

Səyyah olduğu barədə yalan isə hələ də qüvvədə idi. Banu heç bu barədə soruşmurdu...Bəzən Basatı qucağında yatıra-yatıra astadan ağlayardı. Eyvaz dəqiq bilmirdi göz yaşlarının səbəbini, amma həmin yaşlarda Aqil amilinin də olması şübhəsiz idi. Eyvaz onu darıxmağa qoymasa da, darıxmaqdan da uzaqlaşdıra bilmirdi onu. Aqildən isə xəbər yox idi ki, yox idi. Artıq mənasız gəlirdi axtarış Eyvaza...Bəlkə ölüb? Öldürüblər? Bəlkə xaricdədi? Banu isə ümidinü itirmirdi. Bakıdakı bütün türmələri gəzsələr də tapmamışdılar. Züleyxa Banunun inadına dözməyib geriyə, Yevlaxa qayıtmışdı. İndi Banunun və Basatın qeyri normal ailəsi var idi. Səyyah Eyvazdan, fahişə Zarinadan ibarət...Zarina da olduğu hər müştəridən Aqili tanıyıb-tanımadıqlarını xəbər alırdı. Gördüm, tanıdım deyən olmurdu...

Düşünmək görməkdir! (Balzak)

Fevral ayı idi. Bakı ağ libasını dəyişmək istəmirdi. Artıq iki həftə idi ki, qar yağırdı...Yayın cırhacırında qar, şaxta arzulayan insanlar indi də yay, isti arzulayırdılar. Bu insanlar necə qəribədilər...Bəzən düşünmək olar ki, insanların burnu heç vaxt düzəlməyəcək. Düzəlməsi üçün hər cür şərait olsa belə, yenə hardansa bir dərd, problem tapıb, çıxarıb, əyəcəklər burunlarını. Açılmayan qaşqabaqlar, nifrət dolu simalar...Gülməyi unudanlar şəhəri. Necə gülürlər görəsən xöşbəxtlər? Fərq varmı gülüşlərdə? Var,var... Xöşbəxtlər heç nə düşünmədən ürəklə çox rahat gülə bilirlər. Sıradan olanların gülüşündə belə qorxu gizlənir. Rahatsız gülürlər. Düşünmək gözəldi. Çox düşünmək isə axmaqlıq. Aparın şəhərin parklarının birinə stul qoyun və kənardan həmin stulu müşayiət edin. Kim necə yorğun olsa da o stula yanaşıb, oturmayacaq. Bu mədəni olmaq demək deyil, qorxudu. Bir ürəkli insan tapılıb oturmayınca, göstərməyincə ki, bu adi stul elə oturmaq üçün qoyulub, stul arxa üzü görməyəcək...Bu axmaqlıq, dar düşüncəli olmaq demək deyil. Əksinə, çox düşünmək, hər şeyi ifrat dərəcədə

ölçüb-biçməkdi. Yeməyi çox yedikcə isə, qabın həcmi, qarının həcmi də böyüyür. Gözəl qızla tanış olan, nakam sevgi yaşayan oğlan üçün artıq o qız ideala çevrilir. Sonrakı ötəri və hətta ciddi sevgililərində o qızı axtarır. Ağıllı sevgilisindən ayrılan qız üçün Romeo obrazı Eynşteyn olur. Onların hədəfə çatmağı uğrunda etdiyi mübarizələrdə qurban etdikləri isə "mənim təqsirim nədi" sualına cavab tapmayanlar olurlar. Çünki, zəif addım və zəif duyğularla heç vaxt mübarizə əzmi olan insanı ram etmək olmaz...Yağışı gözləyən günahlı əlləri okeanla da yumaq istəyi yersizdi...

***

Bir gün olmayacağam.

Küləkləri sevəcək qəbrimi küləklər şəhərinin.

Yağışı yuyacaq, qarı örtəcək

bəyazıyla, şaxtasıyla.

Gündüzlər,gecələr ötəcək,

buludlar səmasıyla...

Günəş qızdıracaq torpağımı,ay şeh salacaq.

Məndən nə qalacaq?

Xatirələr təsəllisi.

Fəlsəfi eşq dəlisi,

boş otağın qaranlıqlar sərgisi.

Yazılarımı oxuyacaq oxumağa layiq görmədiklərim,

söyəcəklər sevə bilmədiklərim.

Kimə lazım olacaq dediklərim?

Gözümü kor edəcək gördüklərim,

beynimi yoracaq bildiklərim.

Gəlirəm,Allah!

Qarşılasın cəhənnəm məni.

Çox utandırdım mələkləri...

Yoxdu axmaq,dahi dedikləri,

yoxdu daha bezmiş ruhun cismimə üsyanı.

Dəyişə bilmədim nə özümü,nə də dünyanı.

Təqvim eyni,kitab eyni,qələm eyni.

Qəliblər sıxır zehni.

Çərçivə darısqal,çıxartdım qəlbi.

Tapsın azadlıq,tapsın sevgi.

Yorulmaq xoşbəxtlikdən olacaqsa qoy bədbəxtlik üçün darıxım.

Sehirli xalça işləmədi,bəhanə oldu ucuzlu çarığım.

Yazmayacağam,pozmaq olacaq marağım.

Bir gün olmayacağam.

Büdrəməyəcək kələ-kötürlü dünya adlanan yalanda ayağım.

Aliki danışdırmaq üçün çox çalışan Cavid, indi onun susması üçün dualar edirdi. Acı həqiqətləri, hər beyində gəzən düşüncələri ustalıqla cəm edib sözlərə düzdükcə Cavidi qəddarlaşdırırdı. Pessimist deyildi. Optimist olmağı üçün isə heç nə qalmamışdı. Reallığa bəsirəti açıq olan bomjun insanlığa olan sevgisini elə insanlar tükətmişdilər. Ona skameyka göstərmişdilər yer istəyəndə. Ona araq göstərmişdilər təsəlli istəyəndə. İndi heç kimin haqqı yox idi onun bu

vəziyyətində günahlandırsın. Nə vermisiz ki, istəyəsiz?! Başının qanını yalayan divarlar, önündə çəkilən hasarlar, intihara qalxan mərtəbələr öyrətmişdi. Öyrətmişdi nifrətin açan tumurcuğu ilə mərhəmətin bitdiyini.

Cavid artıq unutmuşdu buraxıb gəldiyi özünü. O gülərüz simasından əsər-əlamət qalmamışdı. Həqiqətlərin suladığı qara saçlarında ağlar görünürdü. Alikdə tapmışdı özünü...Hər gün şəhəri veyil-veyil gəzirdilər. Qarşılarına iki cür insanlarlar çıxırdı. Onlardan iyrənib, burunlarını tutanlar və onları görməzdən gəlib, baxışları yayındıranlar. Qəribəsi bilirsiz nədi? Heç bir insanı maraqlandırmırdı onların hara getməsi, hardan gəlməsi, nə yeməsi, nə içməsi, harda yatıb, harda qalxması. Hər kəsin sevdiyi bu filmdə bu iki obraz lazımsız, montaja məhkum kadr idi...Alik belə şeylərdə başını aşağı salıb gülümsəyərdi. Cavid öyrəşməmişdi. Bu cəmiyyətə bu yerdən baxmağa öyrəşməmişdi. Bəzən minlərin arasından sağaltdığı xəstələri də görürdü. Ona məhəl belə qoymayan xəstələrini...Yenə xəstə idilər. Cəmiyyətin formasında maniken həyata məhkum xəstələr...Sual vermək olmaz heç kimə çünki, hər kəsin bəhanələr şablonu hazırdı.

Bərk şaxta var idi havada...Onlar İçərişəhərin bürcündə büzüşüb, oturmuşdular. Arada durub gəzişirdilər ki, donmasınlar.Gecə düşdüyündən küçələrdə ins-cins yox idi. Qarı sovuran küləyin vıyıltısı uzaqdan gələn polis sirenaları və itlərin ulaşmaşıyla qarışırdı.

Alik iki butulka boşaltsa da, şaxtanın təsirindən çıxa bilməmişdi. Qaşqabağlı üzünü qaşıya-qaşıya nə haqdasa düşünürdü. Cavid dizlərini büküb oturmuş halda Alikə baxırdı. Bu gün demək olar ki, heç nə yeməmişdilər. Qarınlarından gələn müxtəlif əcaib səslər isə ara vermirdi. Alik boğultulu səslə dedi:

-Yəni bu sondu, hə Cavid?

Cavid diksindi...

-Nə sonu?

-Bu cür şaxtadan sağ çıxmağa ümüdlüsən?

-Heç nə olmaz, dözərəm, Allah qoysa...

-Cavid? Mə... (öskürək imkan vermir)... Mənə nağıl danış...

-Nə? Nə nağıl,ay Alik?

-Nə istəyirsən danış. Nağıl, hekayə...Danış, mən də yatım...

-Yaxşı, dayan bir yadıma salım nəsə...Aha...Deməli belə...

Cavid nağılı danışıb bitirdi...

Alikdən səs çıxmırdı. Başını bürc divarına söykəyib, yuxulamışdı.

Danışıq, təcili yardım sirenalarının səsinə oyandı. Nə baş verdiyini anlamırdı. Camaat təəcüblə ona baxırdı. Alik tərəfə çöndü...Alikin üzünü örtmüş, xərəyə qoyurdular. Ölmüşdü Alik...Yerdə gecədən qara qarışmış qanlı tüfürcəklər görünürdü. Ölmüşdü Alik...Ümüdsüzlükdə közərən sonuncu ümüdlə bərabər ölmüşdü. Cavid indi boş idi. Kimsə ölü sükut çökdürmüşdü mənzərəyə. Heç nə eşitmirdi Cavid. Ona yanaşıb nəsə soruşurdular. Çiyninə toxunub elə hey nəsə soruşdular...Aliki təcili yardım maşınına qoyurdular...Hava qaraldı. Qara qar yağırdı. Cavid artıq kadrları da itirirdi. İnsanlar bir-bir yoxa çıxırdılar. Beyninin zülmətində sonuncu insan yoxa çıxanda oturaq vəziyyətdən yanı üstə düşdü...

***

Bazar günü olduğundan iş günü deyildi.Bütün həftə boyu yığılan yorğunluğunu bu gün dincəlməklə atmaq arzusunda idi Toğrul. İş yoldaşları Rəşad və Azər srağagündən icazə alıb rayona getmişdilər. Azərin atası, Rəşadın əmisi olan Sabir kişinin rəhmətə getmişdi. Nəriman da, dünən işdən bir başa dayısı gilə getmişdi...Rahat yatması üçün Toğrula heç nə mane olmurdu, amma qapının döyülməsi heç yerinə düşmədi...Əsəbi halda yerindən qalxıb ürəyində qapı arxasındakı şəxsi söyə-söyə, kimin ola biləcəyini tapmağa çalışdı.

"Azərlə Rəşad ola bilməz. Nəriman da gəlməyəcək bu gün. Başqa kim ola bilərki?!"

Qapını açıb,Günayı görəndə çaşdı.

-Salam.

-Salam...

-Toğrul sizsiniz?

-Bəli,mənəm...

-Bizim borcumuzu siz ödəmisiz dükana və...

Toğrul söhbətin nə yerdə olduğunu anlayıb, cəld Günayın cümləsini yarıda kəsib, öz hazırladığı cümlələri anlatmağa çalışdı...

-Dükançı qadının o dəfəki hərəkəti təsir etdi.

Kim olsaydı mənim yerimə eyni atdımı atardı.

Nə vaxt olar qaytararsız.

Sizi anladığım üçün elə etdim.Başqa ağlınıza heç nə gətirməyin.

Toğrulun uzun-uzadı anlatdıqlarından ən məntiqli cümlələr bunlar idi...Günay isə təmkinlə qulaq asırdı.

-Yenə deyirəm,bunu sırf insanlıq naminə etdim.Səhv anlamağınızı istəmirəm...

Sözünü qurtaran Toğrul ümüdlə gözünü Günayın dodaqlarından çıxacaq sözə dikdi.Günay isə gülümsəyib düz Toğrulun gözünün içinə baxaraq dedi:

-Səhv anlamamışam, amma siz anlatdığınıza da inanmıram.

-Necə yəni?

-Dürüst olun. Yəni mən uşaq deyiləm.

Günlərdi məni izləyən şəxsin hansısa bəhanə ilə yaxınlaşmasını gözləyirdim. Gözəl və məntiqli bəhanə tapmısız. Görün bir necə bəhanədir ki, mən özüm öz ayağımla gəlmişəm sizə...

Günayın kinayəli təbəssümü fonunda atdığı oxların hədəfi olan Toğrulun dili söz tutmurdu. Əslində bəhanə deyildi, amma lap əslində bəhanə idi. Maraqlı paradoks idi...Toğrul başını aşağı əyib gülürdü. Günayın bu cür dilli-dilavər təsəvvür etməmişdi axı...Günay da gülürdü məğrur simasıyla.

-Adımın Toğrul olduğunu hardan bildiz?

-Çimnaz dedi.

-Çimnaz kimdi?

-Dükançı qadın...Bizim borcumuzu ödədiyiniz qadın.

-Hmm adımı hardan bilir görəsən?

-Onun bilmədiyi şeyə qurd düşər...

-Anlaşıldı artıq...(Hər ikisi gülür)

-Tez bir zamanda pulunuzu qaytaracağam. Xahiş edirəm qardaşım bilməsin. Özüm qaytaracağam, mütləq, arxayın olun.

-O nə sözdü, əlbətdə. Deyərdim qalsın, qaytarmasazda olar...

-Yox! Dedim axı qaytaracağam, tezliklə.

-Oldu...Necə istəyirsiz.

-Yaxşı, mən daha gedim...Sağ olun, çox sağ olun Toğrul bəy.

-Qapı ağzında...Heç yaxşı olmadı...

-Narahat olmayın, yaxşı oldu.

-Onda hələlik, uğurlu gün sizə.

-Adım Günaydı, bilməmiş olmazsınız yəqin ki...

-Öz ağzınızdan eşitmək xoş oldu.

-Hələlik Toğrul...

-Sağ-salamat.

Qapını bağlamadan Günayı nəzərləriylə yola saldı pillələrə...Dözmədi...

-Günay?

Pilləkanları düşən Günay təəcüblə başını qaldırıb Toğrula baxdı.

-Bəli?

Toğrul pillələri enib Günaya yaxınlaşdı.Düz gözlərinin içinə baxdı...

-Günay...Görüşə bilərik?

-Niyə?

-Bəhanə tapmıram indi...

-Yox!

-Yox deməyin...

-Yaxşı, onda xeyr, salamat qalın, getdim.

Toğrul əl çəkmək niyyətində deyildi. Günayın öz ayağıyla ona gəlməsi onu ürəkləndirmişdi. Elə gün olurdu ki, heç işə də getmirdi. Ya da gedib bir bəhanə ilə icazə alıb evə gələrdi, Günayı görsün deyə. Günayı səhərlər qardaşı yola salsa da, günortadan sonra həmişə evə tək gələrdi. Bu da Toğrula bəhanə olmuşdu. Son günlər bəhanələr həyatında ən başda duran anlamlardan idi Toğrul üçün. Dəyib-dolaşıb bəhanəyə rastlayırdı. Bəhanələrdən ən mühümlü olanlar Günayın diqqətini qazanmaq üçün edilənlər idi. Günay isə ərimək bilmirdi ki, bilmirdi. Toğrul isə təslim olmağı düşünmədən məqsədindən heç cür əl çəkmək istəmirdi.

İşdə Tahirlə sözləşmişdi. İcazəsiz filansız işdən çıxıb, evə gəlmişdi. İndi də blokun ağzında durub yola baxırdı. Günayın gedib-qayıtdığı yola...Yenə onu gözləyirdi. Fikirlərini bir yerə toplayıb yenə yaxınlaşmağa qərar vermişdi.

Günay göründü...Başı aşağı halda çevik atdımlarla bloka yaxınlaşırdı. Toğrulu görüb gülümsəyib salamlaşdı. Pilləkanları çıxmaq istəyəndə Toğrul qolundan tutdu.Günay diksinib Toğrula tərəf baxdı. Toğrul qızın əlini buraxmadan "Gəl qorxma"- deyə pıçıldadı.

Beşinci mərtəbəyə, ordan çardağa, ordan dama qalxdılar. Günay heç nə demədən Toğrulun nə istədiyini tapmağa çalışırdı...Damdan açılan mənzərə gözəl olmasa da, evlərə, insanlara yuxarıdan baxmaq çox maraqlı idi. Yarımçıq bir kirəmit, butulkalar, antenalarla dolu idi dam. Toğrul damın bir kənarında dayandı. Günay astadan soruşdu:

-Niyə qalxdıq bura, Toğrul?

Toğrul dərindən nəfəs alıb üzünü Günaya tutub dedi:

-Söz ver ki, sona kimi qulaq asacaqsan, sözümü kəsmədən.

-Söz verirəm Toğrul, buyur danış...

Toğrulun dedikləri...

-Anarın "Beş mərtəbəli evin altıncı mərtəbəsi" romanı yeganə oxuduğum kitabdı. Bu o demək deyil ki, kitab oxumağı sevmirəm...Yox, sevirəm. Sadəcə oxumuram. Hər kitab təsiretmə gücünə, məğzinə görə fərqlidi. Oxucu yeni kitab oxumayınca, oxuduğu son kitabın təsirində qalır. Məhz buna görə mən ilk oxuduğum və ilk sevdiyim əsərə xəyanət edə bilməmişəm. O romandan sonra bir çox kitabları yarıya kimi oxumuşam. Niyə yarıya qədər? Təsir altına düşməyim deyənə. Həmin kitabları oxuyanlar mənə danışırlar yarıdan sonra nələrin baş verdiyini, epiloqu və artıq oxumuş kimi oluram təsir altına düşmədən. Həmin roman sevgidən bəhs edir. Əbədi, əlçatmaz sevgidən. Bəlkə də oxumusan ,bilmirəm.

Həmin romanın sonluğunda bir cümlə var. "İnsanlar beşmərtəbəli evin altıncı mərtəbələrini görsəydilər nə var idi ki..." Bax Günay, indi sən də, beşmərtəbəli evin altıncı mərtəbəsində durmusan. Yanımda olaraq...Bir azdan burdan bloka düşəcəyik, amma sənin həmişə yerin bu görünməz mərtəbə olaraq qalacaq. Əlçatmaz olub-olmaması sənə bağlıdı...Səni sevirəm Günay. İlk gördüyüm andan, hər gün daha da artan, təsvir edə bilməyəcəyim qədər çox sevirəm.

Günay sözünü qurtaran Toğrulun əlini ovucları arasına götürüb az qala pıçıltı ilə...

-Toğrul, incitmə həm məni, həm özünü. Mümkünsüzdü bu...Mən layiq deyiləm altıncı mərtəbəyə. Qurban olum, heç bir sual vermə, danışma. Ümüd vermək istəmirəm sənə. İstəmirəm mənə görə əziyyət çəkəsən Toğrul, istəmirəm!

-İstəmirsən əziyyət çəkməyimi və mümkünsüz olduğunu deyirsən...

-Bilirəm...Bilirəm ki, axmaq sözlər deyirəm, amma ən düzgün qərar elə burdaca başlamamış bitməsidi, Toğrul.

-Mənim yerimə qərar vermə, Günay. Mənim ağlıma da gəlmir nəisə başlamadan, özümüzə şans tanımadan, risk etmədən bitirmək.

-Nə edək bəs?

-Ürəyin nə deyir?

-Ürəyim qələt eliyir. Ağlıma güvənirəm, o isə səni mənə sığışdıra bilmir.

-Sığışdırar. Ürəyin qəbul edirsə, ağlın da, qəbul edəcək Günay.Yol sonu qaranlıqdı deyir ağlın? Ürəkli olub, özün get, gör. Əmin olmamış qərar qəbul edib, hər ikimizə haqsızlıq etmiş olma.

-Əminəm ki, qaranlıqdı!

-Xeyr, xanım, əmin ola bilməzsən!

-Toğrul...

-Sus...

Toğrul Günayı qucaqlayır. Qolları arasında həyəcandan titrəyən Günay pıçıldayır. "Bağışla məni". Bu pıçıltını bəlkə də Toğrul eşitmir...Ya da, eşitsə də, önəm vermir...

***

Gedirəm...

Yolum uzun,mənzilim uzaqlardı.

Mənə əziz mənzərə bu dənizdi,dəli dalğalardı.

Bu şəhərdə tapmadım günəşi,tapmadım arzuları.

Gedirəm indi yoraraq ayaqları.

Tanış notlar,tanış musiqi.

Maestro,bağışlasın tuta bilmədim ritmi.

Çəkdim gormədiyin gülüşümü ulduzlara.

Görəsən nə səbəb var yalanlara?

Gecədi artıq,gecdi artıq.

Daha bir ümüdü alçaltdıq.

Əmanət olsun dənizim sənə,bu şəhərim sənə.

Daha yoxdur çiçəkləyən tikan.

Daha yoxdur yuxuna haram qatan.

Gedirəm əsam və mən...

Qal salamat,bacarsan o şəhərin,o da sən!

Zarina intihar etmişdi. Polis basqını zamanı tutulmamaq üçün biləklərini doğramışdı...

Banu ilə Eyvaz xəstəxanaya çatanda Zarina can verirdi...Banudan onu qucaqlamasını xahiş etdi. Qulağına nəsə pıçıldayandan sonra Eyvaza gülümsədi, dərin bir nəfəs aldı. Bu onun aldığı son nəfəs idi...

Dəfn etdilər. Torpağa tapşırmaq da deyillər buna, amma torpağa yox Allahın mərhəmətinə buraxmaq desək daha düzgün olar.

Son anında Banuya səkkiz yaşlı oğlunun olduğunu etiraf etmişdi. Kamotundakı gözlərin birində qoruduğu sənədləri tapmağı istəmişdi Banudan.

Kamotdan çıxan sənədlərdən məlum oldu ki, Zarinanın səkkiz il əvvəl nigahdan kənar əlaqədə olduğu Taleh adlı şəxsdən Əfqan adlı oğlu var. Uşağın iki yaşı olanda Zarina onu uşaq evinə qoyub...Digər bir sənəd isə Zarinanın iki ay öncə evi Banunun adına keçirməsi haqda idi.

Banu sənədləri oxuduqca hıçqırırdı. Gözündəki damcılar üzündən sürüşüb, əlindəki vərəqə düşürdü. Eyvaz da dolmuşdu...İçin-için çəkirdi. Həyatında ilk itgisinin acısı ondan yan ötə bilməzdi. Banunun sakitləşə, özünü ələ ala bilməməsini o gözəl anlayırdı. Yanılmışdı Banu. Ancaq fahişə obrazında gördüyü Zarinanın əsl siması onu yanıltmışdı. Kiçik bildiyi bu qadının böyük ürəyinə yanılmışdı... Cəmiyyətin fahişə etdiyi yüzlərdən birinin saf düşüncəsini görə bilmədiyi üçün yanılmışdı...Onunla bir dəfə olsun belə söhbət etmədən, onu eşitmədən, tanımadan tamaşasına baxdığı aktrisa kimi, mənəviyyatına deyil, roluna verdiyi qiymətdə yanılmışdı.

Kamotun lap alt gözündən isə Zarinanın gündəliyi tapıldı...Fahişə gündəliyinin nə yazılardan ibarət olacağını təxmin edə bilər hər kəs. Söhbət amma Zarinadan gedirdisə, o gündəliyi oxumağa ürək lazım idi.

Eyvaz boz karton üzlü dama-dama vərəqli gündəliyi vərəqləyib oxuduqca aldığı rənglər təsvirə gəlməz idi. Titrəyən əlləri səhifələri çevirir, dodaqları arasında dişləriylə sıxdığı siqaret tüstüləyib əridikcə, soyuq küllər üstünə tökülürdü. Banu Eyvazın ifadəsindən gündəliyi oxuyurmuş kimi ağzını tutub, hönkürürdü...

Fahişənin gündəliyi (ixtisarla)

...Mən fahişəyəm. Bildiyiniz qəhbəlik yəni. Bu yola düşməyimə səbəb nə atam, nə anamdı. Özüməm. İşimi sevirəm. Heç kim günahkar deyil mənim bu işi seçməyimdə! Uşaqlıqda mən də ərə gedib ana olmağı arzulamışam, digər qızlar kimi...Anam kimi ana olmağı arzulamışam...Böyüdükcə arzuların dəyərsizliyi, əlçatmazlığı mənə arzusuz yaşamağa məhkum etdi. Sevmişəm mən də. Hamı kimi. Anamın atamı sevdiyi kimi. İnanın anam atamı çox sevirdi. İndi sevməsin. Atamdan fərqli mənim sevgilim məni bərabər olduğumuz ilk gecəyə kimi sevdi. Sonra, rahatca çıxıb getdi. Son sözləri də yadımdadı. "Kimə desən,özünü rüsvay edəcəksən. Mənə nə var ki, oğlanam və min bəhanə ilə sudan quru çıxacağam.” Adı İlqar idi...Bəlkə bu cümlələri o vaxt yazsaydım necə nifrət etdiyimdən, necə çarəsiz olduğumdan yazardım, amma...Amma indi adiləşib. İlqar da, Taleh də, daimi və təsadüfi müştərilərim də, həyatım da, getdiyim-gəldiyim yerlər, gördüyüm sifətlər... Hər şey adiləşib. Hər dəfə müxtəlif kişilər üçün soyunub, müxtəlif yataqlara uzananda iki şey gəlir ağlıma. Anamın göylərdən mənə nifrətlə baxması və Əfqanı uşaq evinə verəndə körpə əliylə barmağımdan yapışıb ağlaması...İndi artıq böyük oğlan olub. Qınasın qoy məni, söysün. Eybi yox! Bir uşaq üçün anasının fahişə olduğunu bilmək ayrı, o murdar anayla bir damın altında yaşaması ayrı. Qıymadım ona. O saflığa. Südümü belə vermədim. Qazandığım pulların çox hissəsini də həmin uşaq evinə köçürürəm hər ay. Bircə istəyim var...Əfqanım mənə nifrət etsə də, anlasın...Bağışlamamağa haqqı var. Onun varlığı, xöşbəxt olması, gülümsəməsi mənim üçün bəsdi. Yanında olmaqdan isə utanıram və istəmərəm oğlum fahişə anasına görə utansın. Əsla!

Evdə körpəlik paltarları qalıb. Qoxlayıb, qoxlayıb yatıram. Səni sevirəm Əfqanım. Nə vaxtsa buna inanacağın ümüdü ilə...

***

Bölüşmürəm sənlə dərdimi.

Bölüşsəm nə olacaq ki?

Rahatlıq əvəzinə mənalı baxışlarındakı suallara rast gələcəyəm.

Bölüşmürəm sənlə sevincimi,çünki görə bilməzsən həmin anı.

Nə kölgəm ol,nə əksim.

Batarsan qaranlığımda,azarsan düşüncəmdə,yanarsan soyuqluğumda!

Uzaq ol mənə,ulduzlar kimi.

Nə vaxtsa göydən axsan arzu tutum.

Razıyam axmaq olum alimlər ölkəsində.

Razıyam epizodik rol dahilər səhnəsində.

Razıyam ömürlük məhkumluq düşüncələr türməsində.

Gözünü açanda xəstəxana palatasında olduğunu gördü. Qoluna iynə sancıb, sistem qoşmuşdular. Nələr baş verdiyini anlamağa çalışırdı. Yada salmaq istəyirdi bura necə gətirildiyini. Baş ağrısından heç nə düşünə bilmirdi. Ağrı isə getdikcə daha şiddətlənirdi.

Qapı açıldı. Ağ xalatda olan qəbilə başçısı göründü. Cavidin anlaya bilmədiyi dildə nəsə danışırdı, əlində gətirdiyi vərəqləri göstərir, oxuyurdu. Artıq qorxu hissi də bədənini bürüməkdə idi. Cavid onu qapı altından süzülüb, ayağından bədəninə daxil olduğunu görürdü. Qara düyünlü saplara oxşayırdı qorxu...Soyuq tər isə qorxunun gəlişindən məmnun deyildi və sakitcə Cavidi tərk edirdi. Qəbilə

başçısının siması da dəyişir, eybəcərləşirdi. Gözünün biri eynəyini sındırıb ,üzü aşağı, burnuna sallanmışdı. Arada qarından yuxarı nəsə hərəkət edir, ağzından əl şəkilində çıxıb, çənəsindən yapışır, dişlərini sıxanda isə yenidən yox olurdu. Qapı arxasından tükürpədici fəryadlar, ulartılar gəlirdi...

Cavid var gücünü yığıb, bağırdı və huşunu itirdi. Yanında duran həkim qışqırıb, köməyə səslədi. Ard-arda üç iynə vurduqdan sonra Cavid gözlərini açdı.

-Mən hardayam?

-Sakit ol oğlum, xəstəxanadasan.

-Xəstəxanada niyə? Alik...Hanı Alik?

-Bir balaca əzilmisən deyənə tibbi yardıma ehtiyacın var. Ona görə burdasan.

-Mənim heç nəyə, heç kimə ehtiyacım yoxdu. Mən özüm həkiməm, klinikalarım var. Aparın məni öz klinikama.

Həkimlərdən biri baş həkimin qulağına pıçıldadı:

-Həkim, bu yenə sayıqlamağa davam edir.

Baş həkim diqqətlə Cavidə baxaraq cavab verdi:

-Psixi pozğunluq. Şizofreniyadan da şübhələnirəm. Sakitləşdiricinin miqdarını artırıb vurun, yatsın.

Cavid isə bağırmaqda idi...

-Əl çəkin! Rədd olun! Buraxın! Alik hanı? Nə etmisiz ona? Buraxın! Lənətə gələsiz! Peşman edecəyəm sizi!

Səhər oyandı. Bədəni keyimiş, süstləşmişdi. Elə bil bütün gecəni daş daşımışdı. Danışmağa halı yox idi. Baş ağrısı, amma keçmişdi...Qapı açılanda yuxulayırdı. Səsə ayıldı. Dünənki ağ xalatlı həkim idi. Gülümsədi Cavidə baxaraq.

-Necədi bizim dəcəl xəstəmiz?

-Bilmirəm...

-Nəyinsə ağrıyır, oğlum?

-Yox.

-Bax oğlum, mən həkiməm.İstəmirəm məndən nəsə gizlədəsən. Sağalmağın üçün bizə kömək etməlisən. Bunun üçün sənə verilən suallara düzgün cavab verməyin kifayətdi. Anlaşdıq?

-Burdan çıxmaq istəyirəm!

-Dediyim kimi, suallara düzgün cavab versən, söz verirəm ki, ən yaxın müddətdə səni evə yazacağam. Hə, anlaşdıq?

-Yaxşı.

-Çox gözəl...Adın, familiyan?

Cavid sanki oyandı. Familiya? Yox, familiya desəm tanıya bilərlər.

-Cavid Kərimov.

-Çox gözəl...Cavid, valideynlərin, qohumların, hər-hansı bir tanışın varmı?

-Yox, heç kimim yoxdu.

-Neçə ildi küçələrdəsən?

-Uşaq evindən çıxandan.

-Aliki çoxdan tanıyırsan?

-Yox.

-Yaxşı Cavid, çox yormuram səni. Dincəl...Nə lazım olsa tibb bacısını səslə. Mən də arada gələcəyəm.

Artıq üç gün idi ki, xəstəxanada idi. Həkimlərin son diaqnozu sağalması olduğundan burdan çıxış anını gözləyirdi. Onun burda qalması heç kimə sərf

eləmirdi. Nə həkimlərə, nə tibb bacılarına, nə xadimələrə, nə də özünə. Yoxsulun üzü qaradı frazası burda da aforizm idi. Kimə lazımdı bomj? Kimə lazımdı onun sağalıb-sağalmaması, taleyi, həyatı...

"Alik...Bədbəxt Alik...Harda basdırıldığını belə bilmirəm..."

Savalan həkim gəldi. Artıq Cavid onun ad familiyasını əzbərləmişdi. Savalan Mansurov. Yenə öz tərzində, şit-şit dişlərini ağardıb, gülümsəyirdi. Bəlkə də gülümsəyəndə özünü görsəydi, dözməyib güzgünü sındırardı. Sifətindəki qırışlar o an qabarıb, iyrənc mənzərə yaradırdı. Burun eynəyi də ayrı bir hekayə idi. Burun eynəyi niyə? Çünki eynəyi onun gözündə bəlkə heç həmin eynəyi ona satan aptek işçiləri də görməmişdilər. Burnunun üstündən, daha doğrusu burnunun ucundan yaxına buraxmırdı eynəyi. Həkim dəbi idimi, nə idi, bunu Savalanın özündən başqa yalnız oftolmoloqu bilirdi.

-Cavid bəy, artiq xəstəxanamızdan çıxışa yazıldınız. Bir daha bu şəraitdə rastlaşmamağımız ümüdü ilə...Ha-ha-ha...

Cavid ürəyində özünə səbr arzulayıb ayağa qalxdı. Xadimənin səhərə yaxın gətirdiyi, çarpayısı yanındakı stula qoyduğu paltarlarını geyindi...Paltarları yuyulub, ütülənmişdi. Hətta sökük ayaqqabısının yerinə təzə cüt ayaqqabı qoyulmuşdu. Cavid bir az təəcüblənsə də, bu haqda çox düşünmək istəmədi. Yenidən paranoya, fobiya yaranacağı xofu canına hopmuşdu. Tam geyinib hazır olduqdan sonra üzünü Savalana çevirib təşəkkürünü, minnətdarlığını bildirdi. Son dəfə yatdığı palataya baxıb, dərindən ah çəkdi. Yadına Alik düşdü. Həkimdən xəbər aldı. Savalan narahat sifət aldı. Elə bil oğurluq edərkən yaxalanmışdı. Bilmirəm deyərək inkar etdi. Cavid uşaq deyildi. Savalanın narahatlığını o dəqiqə duymuşdu.Təkrar sual vermədən palatadan çıxdı. Dəhlizi keçərkən,pillələri düşərkən, xəstaxana binasını tərk edərkən belə Savalanın Alik barədə gizlətdiyi həqiqətin nə ola biləcəyini düşünür, çözməyə çalışırdı. Gedəcəyi yeri hələ xəstəxanada olarkən müəyyənləşdirmişdi, amma...

***

Röyaları gerçəkləşdirməyin ən gözəl yolu oyanmaqdı!

Toğrul Günayla görüşməyə başlamışdı, o dam söhbətindən sonra. Hər ikisi xoşbəxtliyin üst qatlarında belə özlərinə yer tapmayıb, buludlara qanad açıb, uçmaq istəyirdilər.Hər şey Toğrula doğma gəlirdi.Hər cür dəyişən hava, ətrafdakı insanlar, yer, göy, həyat, yaşam, küçə, blok, mərtəbə, Günayın qardaşı, dükançı qadın, mindikləri avtobuslar, karusellər, görüşdükləri park, binalarının damı, hər şey, hər şey doğmalıq çalarında işlənən naxışlara bənzəyirdi. Bəzən Günayı qardaşı yanında olduğu üçün, dərsə baxışlarıyla yola salsın deyə işə gecikirdi. Tahirin dığ-dığı, deyinməsi, bağırması belə Toğrulu əsəbdən çıxarmağa qadir olmurdu. "Bu Tahir də qəribə tipdi e...Az qala başında qoz sındırıram, amma bu elə anqırmağı bilir. Niyə çıxartmır məni işdən? Dalıma bir təpik vurmaq bu qədər çətindir məgər?"-deyə düşünər, öz düşüncəsinə gülər, Tahiri hər gün daha bərk bağırtmaq üçün planlar cızardı Günayla bağlı.

Hər gün dərsdən sonra görüşürdülər. Günayın qardaşı o vaxtlar işdə olurdu. Tahir "müəllim" isə idarədə. Bu da hər ikisinə sərf edirdi.

-Toşka məni necə sevirsən?

-Hmm...Dayan fikirləşim...

-Eee, nə pis oğlansan e. Bilmir necə sevdiyini...

-Yum gözünü.

-Aha,yumdum.

-Nə görürsən?

-Qaranlıqdan başqa heç nə.

-Səni necə sevdiyimi o qaranlıqda gizlətmişəm...

-Bəs mən axı qaranlıqdan qorxuram.

-Aç gözünü.Nə görürsən?

-Səni!

-Bu da sənin işığın olsun qorxmamaq üçün...İndi sus.Gəl bura...

Romantik anlarda duyğulara qapanardılar. Bəzən susub dəqiqələrlə bir-birinə baxar, sanki cizgilərini yadda saxlamağa çalışardılar. Ailələri barədə heç vaxt söhbət etməzdilər. Onlara maraqlı olan elə özləri idilər.

-Gözümə bax.

-Niyə?

-Üzmək istəyirəm onlarda.

-Mən isə üzə bilmirəm deyənə, artıq batmışam gözlərində.

-Yox Toşka, sənin gözlərin daha gözəldi. İnsaf naminə deməliyəm. (Hər ikisi gülür)

-Bəxtəvər başıma.

-Əlbətdə bəxtəvər başına.Ən gözəl qız yanında, ən gözəl gözlər səndə...Toğrul, görəsən gözəl göz daha gözəl görür?

-Hə, mənim gözlərim gözəl görür...

-Çoxbilmiş pissən sən.

-Başına gələn ən pis şeyəm həmdə...

Bərabər paylaşmaqları üçün çox məqamlar var idi. Mahnıları, filmləri, rəqəmləri, günləri...

- Qulaq as Günay, eşidirsən?

- Hə...

Sevəcəyəm səni ölənə kimi.

Könlümün atəşi sönənə kimi.

Ömrüm arzularda üzən bir gəmi.

Ruhumun bir ayrı ölkəsi yoxdu...

Bizim mahnımızdı Toğrul, ancaq bizim.

Toğrul artıq adsız yolunda öz kəşfini etmişdi. Qayıtmaq istəyirdi. Elçilərini göndərmək, anasını, atasını sevindirmək istəyirdi bu xəbərlə. Sevinərlərmi görəsən? Axı Günay onların planında olmayan ailə qızı idi. Bunların əhəmiyyəti yox idi Toğrul üçün. Onu öz xöşbəxtliyindən heç kim ayıra bilməzdi. Ən azı o belə düşünürdü...

***

Gələcək gəlməyəcək.

Saxta dodaqlarda axtarma təbəssüm,gülməyəcək.

Bilməyəcək nə dediyini axmaq,lal olub dinməyəcək.

Demişdim axı ay ürək,o vəfasızdı,aldadacaq,sevməyəcək.

Çırp qapını üzümə,titrəsin divarlar.

Dağılsın gözümdəki hasarlar.

Məni proloqa qaytarın hörmətli yazarlar...

Çəkim həyatımı fərqli kətanda.

Fərqli rənglərlə işləyim naxışları.

Gizlət utanmaz baxışları.

Buludları ağlat,gətir mənə yağışları.

Pıçılda şeytanın ilahi sevgisini.

Hiçqırıqlarda boğaq ölümün zümzüməsini.

Eyvazla Banu uşaq evindən Əfqanı qaçırmışdılar. Qanunlar heç vaxt Banuya Əfqanı əmanət etməzdi himayəçi olaraq.

Hər ikisi bir kafedə işə düzəlmişdilər. Eyvaz ofisiant, Banu xadimə olaraq. Uşaqlara qonşuluqdakı Şəfəq xanım baxırdı. Həm Basat, həm Əfqan ağıllı uşaqlar idilər. Şəfəq xanım tək qadın olduğundan məmnuniyyətlə bu iki gül balaya baxırdı.

Aqildən xəbər çıxdı. Kafenin müştərilərindən biri Aqili tanıdığını dedi...Banu sevinməyə macal tapmamış, eşitdiyi xəbər onu pərişan etdi. Aqil evlənmişdi. Banunun həyatı boyu gözləməyə hazır olduğu halda, türmələri gəzdiyi halda, hər çətinliyə rəğmən Basatı atasına qovuşdurmaq üçün hər cür fədakarlığa hazır olduğu halda, evdən qaçdığı halda Aqil...Aqil əclaflıq etmişdi. Bunu nə Banu, nə Eyvaz bağışlaya bilməzdilər.

Banunun qisas alacağını Eyvaz gözəl anlayırdı. Qarşısını almaq istəsə də, onu da gözəl anlayırdı ki, bu mümkünsüzdü. Banunun içindəki nifrət o qədər böyük idi ki, Aqilin qanını içsə, yenə doymazdı. Boz rəng almış gözəl simasından əsər-əlamət qalmamışdı. Gözünə heç kim, heç nə görünmürdü. Tək düşüncəsi qisas idi. Aqil nəyin bahasına olursa olsun, cavab verəcəkdi...

Aqilin yaşadığı ünvanı yazdığı kağız parçasına xeyli baxdıqdan sonra döşünün arasında gizlətdi.

Eyvaz qışqırıb, diksindi. Yenə o lənətə gəlmiş nərdivan kabusunu görmüşdü yuxuda. Bütün bədənini soyuq tər basmışdı. Səsinə o biri otaqdan Banu eşidib, qalxmış, Eyvaz yatan otağa gəlmişdi. Qapıda durub ona baxırdı.

-Yena o yuxu?

-Hə, səni də oyatmışam deyəsən...

-Yatmamışdım onsuzda...

-Anlayıram, amma nə deyim vallah...

Banu Eyvaz yatan çarpayıya yaxınlaşıb dedi:

-Heç nə Ayvaz, sus.

Eyvazın yanağından öpüb, sözünə əlavə olaraq...

-Mənə fikir verma Ayvaz, yat sən... - deyib otaqdan çıxdı.

Eyvaz o gecəni yata bilmədi. Düşündükcə, düşündü. Özünü, Banunu,Basatı,Əfqanı,Aqili,Cavidi,Toğrulu,Cəlili,valideynlərini,Almaniyada yaşayan özündən dörd yaş böyük olan qardaşını, həyatında olan şəxsləri, doğmalarını, qohumlarını, qonşularını, işçilərini, xoş günlərini, yaşadığı illəri, fəsilləri, ayları, günləri, dünyanı, müharibələri, dahiləri, axmaqları, pulları, otağını, məşuqələrini, olduğu restoranları, ölkələri, şəhərləri, etdiyi savabları, günahları düşündü. Düşünərək qeyri ixtiyarı saydı...Keçmişi saymaq nə asan imiş. Həyatından kitab yazsaydı görəsən neçə səhifə olardı? Oxunardımı? Alınardımı? Alınardı alınmağına, çünki adı bəs idi ki, kitab satılıb qurtarsın. Yaltaqlar oxuyub alqışlayacaq, tərif yağdıracaqdılar. Təki Eyvazın yazdığı kitab evlərində olsun. Onlar o kitabı Qurandan da yüksəkdə bəh-bəhlə qoruyub, saxlayardılar. Elə Quran kimi, o kitab, oxunmasaydı da olardı. Əsas odu, olsun...

"Yaxşı ki,mən yazıçı deyiləm. Heç olmasa bu fakta sevinmək olar."-deyib, ürəyində gülümsədi.

***

Xəyalları da yola saldım sonuncu qatarla.

Vağzalın ayrılıqlardan ağırlaşmış aurası.

Həyatın daha bir sürpriz sinfoniyası.

Ümüdlərə sığındım...

Samandan körpü quranda düşünməmişdim,qismətin kibriti var.

Dəniz ləpələrində ayaq izləri,sahildə qumdan qəsr yadigarı...

Həmin qəsr də boş qaldı...

Yağışla palçığa qarışdı.

Var gücüylə qaçdı,mayakın bələdçiliyi ilə...

Qara ləpələr,vahimənin noktyurnu...

Öz ləpirləri olan ləpələr cəlladı obrazını almışdı...

Rəqs etdi dalğaların ritmiylə...

Çırpındı bacardıqca,yadına düşdü ki,üzə bilmir...

-Bu idi çox sağ olun Aqil? Hə? Cavab ver, alçaq!

-Banu, bəsdi, ver o bıçağı mənə.

-Oğraş, cavab ver, didim! Bu qəhbəyə dayişdin məni, oğlumuzu?

-Banu...Mən belə istəmirdim. Qurban olum, ver o bıçağı mənə.

-Cındırsan! Oğraşsan! Yoxdu sənin vicdanın! Mən poxumu yumurdum ki, küçalarda zorlanmayım, namusumu, adımı, adını qoruyum. Sən alçaq na etdin? Bu qancığa tamah saldın? Tfu sənin kişiliyinə, mənliyinə. Alçaq! Yaxınlaşma, tikə-tikə edaram qəhbəni!

-Mənim günahım yoxdu, buraxın qurban olum...

-Yum ağzını, ay cındır. Altına uzananda fikirləşərdin, düşünərdin bunları! Yoxdu günahın? Bax, o uşağın sifətinə! Diqqatlə bax! Kimdi onu ağladan? Nadi? Siz burda, bu murdar yatağınızda kef edanda mən, mən bu biqeyrətdən nigaran halda geca-gündüz bilmədən, axtarırdım!

-Banu, bağışla...

-Daha nə bağışlayım Aqil? Asandı hə? Sozlari bir-birina birlaşdirib, cümlələr qurmaq asandı? Yalvarmaq asandı? Bax, o uşağa! O mənim oğlumdu! Eşidirsan oğraş? Bizim yox, mənim! Çünki,bundan sonra onun sən adlı atası olmuyacağ!

Atəş açıldı. Aqil yerə sərildi. Qışqırıq səsləri bir-birinə qarışdı.Banu heyrətlə əlindəki bıçağa, sonra Aqilin meyidinə, sonra qapıya baxdı...Eyvaz əlində tapanca hönkürürdü. Basat qucağında, boynunu qucaqlamışdı...

Eyvaz səhərə yaxın Banunun qalxdığını, Basatı götürüb sakitcə getdiyini görəndə, anlamışdı səfərin səbəbini...

Banu diz üstə çöküb, qulaqlarını bağlayıb, var gücüylə bağırdı. Döşəməyə yayılan qan dizlərini yuyurdu...

***

Gözlərində qış gördüm,göz yaşların qar oldu.

Döndüm baxışlarında,bilirdim...

Bilirdim ki,sondu.

Bilirdim aldadacaqsan,bilirdim satacaqsan.

Bilirdim yolda qoyacaqsan.

Fikirlərimdən əl çək,

nə vaxta kimi yoracaqsan?

Təsəllin nədi?

Göz yaşlarınlamı günahları yuyacaqsan?

Unuda bilərsən?

Son xahişim...

Mənimlə rəqs edərsən?

Hmm,qorxursan yenidən sevərsən?

Onda sus!

Acizliyini aldat,ol vəfasız öz yalanlarına, qürüruna.

Tikanlar döşədim qayıtmaq istədiyin yollarına.

Ol təslim nəfsivin səni oxşayan qollarına.

Ürəyin olmasın ayaqyolu, hər gələn murdarlamasın.

Sənə vəfasızlıq yaraşır.

Özünü qoru ki, səndən də şərəfsizi çıxıbda səni aldatmasın.

Toğrul gecə növbəsinə keçmişdi. Belə ona daha rahat idi. Həm doyunca yatır, həm də Günayla rahat görüşə bilirdi. Saatlarla küçələri, parkları gəzərdilər. Ən çox sevdikləri məkan isə Qız Qalası idi. Bir tut ağacı da var idi, sevdikləri. Bir də, dənizləri...Toğrul yağışı sevsə də, Günay sevmirdi. Həmişə küsməyə bəhanə axtaranda Günay onu yağışa qısqanar, alt dodağını salladıb, qaşlarını çatardı.Bu Toğrulun daha çox xoşuna gələrdi...

Gecə növbəsinə qaldığından evə çatıb, çimməyi, bir-iki saat yatandan sonra Günayın görüşünə getməyi planlaşdırırdı yolda olarkən. Saata baxdı. 10:32 dəqiqə. Bu saatı ona Günay hədiyyə etmişdi iyunun 30-u tarixində. Saat taxmağı xoşlamasa da, Günayın verdiyi bu saatı yatanda belə çıxartmırdı.

Məhləyə çatanda polis, təcili yardım maşınları onu çaşdırdı. Bloklarının qabağı adamla dolu idi. Qeyri ixtiyari qaçmağa başladı. Rəşadla Nərimanı görüb, həyəcanla nə baş verdiyini xəbər aldı. Nəriman qoluna girib, onu öz tərəfinə dartıb dedi:

-Gəl Toğrul, gəl bura.

-Nə olub Nəriman?

-Günayın qardaşını öldürüblər.

Toğrul təəccübdən bərələnən gözlərini qırpmadan, titrəyən səslə pıçıldadı:

-Niyə?

-Vallah biz də bilmirik. Polislər heç nə demirlər. Səhər kimsə tapancadan atdı. Biz ürək eliyib düşənə kimi, artıq polislər gəlmişdi...

Toğrul "Günay" deyib bloka tərəf dartındı. Rəşad o biri qolundan yapışıb, saxladı.

-Getmə Toğrul. Məsləhət deyil!

-Nə deməkdi bu Rəşad? Günayım ordadı, buraxın qolumu!

-Toğrul...O ölən...

-Hə, nə ölən? De Nəriman! De!

-Yəni bizdə indi eşitdik...

-Nə eşitmisiz axı? Dəli eləməyin də adamı. Desənə!

-O ölən, Günayın qardaşı yox əri olub!

-Nə???

-Qurban olum Toğrul, gəl oturaq bir yerdə, gəl bura...Toğrul? Toğrul? Eşidirsən? Nə oldu Toğrul...

Ölüm həqiqəti əbədiləşdirir!

Kökü qurumuş ağac kölgəsində vahiməli yuxu.

Sevgi axtarışında olan axmaqlar,

Allah axtarışında olan kafirlər,

xöşbəxtlik axtarışında bədbəxtlər.

Ürəklər seyflərdə,

xöşbəxtlik Franklinin əksi olan kağızlarda.

Yalana olub hamilə dünya.

Axmaqlarla dolu yalan dünya.

Pəncərəsi çatlaq,fani dünya.

Duyğulardan paltar geyən insanların qəbər ürəkləri.

Hardadı mənim yerim?

Hansı keçid,hansı skamya,hansı zibil yeşiyi?

Qəhrəmanlıq ordeni ilə nahar,tələdəki pendirlə şam yeməyi.

Övlad vicdanına bağlı qocalıq illəri,valideyn sevgisine bağlı uşaqlıq.

Mən azadam,məni görən yoxdu!

-Qalxın, məhkəmə gəlir!

Məhkəmə zalındakı hər kəs ayağa qalxır. Orta yaşlı, qırmızı sifət, qara xalatlı hakim, ağır addımlarla zala daxil olub, kürsüsünə qalxıb, yerini rahatlayır.

-Əyləşin!

Hakim qarşısındakı kitabçanı açıb, gözdən keçirdikdən sonra yoğun səslə sözə başlayır.

-Aqil Temruz oğlu Əhədovun qətli ilə əlaqədar olaraq açılan cinayət işi üzrə təqsirləndirən şəxslər-Eyvaz Muxtar oğlu Əliyev və Banu Şamil qızı Tağıyevanın məhkəmə prosesini açıq elan edirəm!

Dövlət itdihamçısı cinayət işi ilə bağlı müddəaları oxumasından sonra, hakim sözü Eyvaza verdi.

-Müddəhim Əliyev Eyvaz, hadisəni, səbəblərini necə yada sala bilərsiz, buyurun.

-Cənab hakim, verdiyim ifadəyə əlavəm yoxdu.

-İfadənizdə qətlin planlaşdırılmış olmasını bildirmisiniz, bu fikrinizdə qalırsınızmı?

-Bəli.

-Yəni demək istəyirsiz ki, Aqil Əhədov qətl olunan gecə Banu Tağıyeva həmin ünvana Aqil Əhədovla ancaq söhbət etməyə gedibmiş və Aqil Əhədovun səhhətinə xətər yetirəcək, heç bir niyyəti olmayıb. Belədi?

-Bəli belədi. Aqili mən öldürmüşəm və burda Banunun təqsiri yoxdu.

-Burda qətlin səbəbi olaraq Aqilin səhvinə görə öldürüldüyünü bildirmisiniz.

-Bəli fikrimdə qalıram.

-Söz verilir, cinayətdə təqsirli bilinən ikinci şəxs,vətəndaş Banu Tağıyevaya.Banu Tağıyeva, ifadənizə əlavəniz və ya düzəlişiniz var?

-Xeyr, cənab hakim. Cinayət mənim planım olub və Ayvazın bundan xəbari olmuyub. Mənim səhərə yaxın, uşağı da goturub evdən çıxmağımı göran Ayvaz bizim arxamızdan gələrək, hara getdiyimizi görüb.

-Vətəndaş Tağıyeva, nəzərinizə çatdırım ki,vətəndaş Əliyev qətli odlu silah vasitəsi ilə törədib.

-Bəli, yoldaş hakim.

-Sizin ifadənizdən məlum olur ki, vətəndaş Əliyev sizi izləyib,həmin mənzilə gəlib, Əhədovu qətlə yetirib. Anlaşılan odur ki, Əliyev bu cinayəti planlaşdırmayıb.

-Bəli, cənab hakim.

-Aydındı...Söz verilir təqsirləndirilən şəxslərin müdafiəsi üzrə vəkil Asif Dadaş oğlu Ağayevə.

-Təşəkkür edirəm. Cənab hakim, Əliyevə suallarım var.

-Buyurun, eşidirik.

-Vətəndaş Əliyev,Tağıyevanın məhkəməyə verdiyi ifadə ilə razılaşırsınız?

-Xeyr!

-Bilmək olar, niyə?

-O məni qorumaq üçün bunu edir. Yenə deyirəm, onun cinayətlə əlaqəsi yoxdu. Aqili mən öldürmüşəm!

-Vətəndaş Tağıyeva cinayəti planlaşdırmadığınızı da bildirdi.

-Planlaşdırmasaydım, tapanca məndə hardan idi?

-Demək istədiyiniz odur ki, tapancanı qətli törətmək üçün əldə etmisiz?

-Bəli.

-Hörmətli məhkəmə heyətinin nəzərinə bir şey çatdırım ki, ekspert qrupu tapancanın ölkənin tanınmış bankı olan "E`s bank" ın mühafizəsinə məxsus olduğunu təsdiqləyib. Tapanca qanuni olaraq həmin bankın sahibi, hal hazırda müddəhimlər kürsüsündə gördüyünüz Eyvaz Əliyevə məxsusdu!

Zalda səs-küy qopdu.Banunun təəcübdən dolmuş gözləri, titrəyən bədəni, həqiqətin təsirini həzm edirdi.

-Sakit! Sakitliyə riayət edin zalda! Vətəndaş Əliyev,doğrudurmu?

-Bəli, doğrudur.

-Yoldaş Ağayev, davam edə bilərsiz.

-Təşəkkür edirəm, cənab hakim. Vətəndaş Əliyev, ölkənin ən tanınmış insanlarından birinin bu cinayətlə nə əlaqəsi? İş yerinizdən və ailənizdən alınan məlumatlara əsasən sizi məzuniyyətlə bağlı Fransa paytaxtında olduğunuz bilinməkdədi.

-Bunun hadisə ilə əlaqəsi olmadığından, cavab verməyə bilərəm?

-Bəli, amma müdafiəçiniz olaraq cavab verməyinizi istəyərdim.

-Mən isə cavab vermək istəmirəm.

-Aydındı. Bəs hadisə baş verməmişdən öncə vətəndaş Tağıyeva ilə münasibətiniz necə olub? Bir evdə qaldığınız öyrənilib, doğrudu?

-Bəli, Banu ilə bir evdə qalırıq. Münasibətimiz dostluqdan başqa bir şey deyil.

-Vətəndaş Tağıyevanın mərhum yoldaşı Əhədov Aqili necə? Hadisə baş verməmişdən öncə görmüşdünüzmü?

-Xeyr, görməmişdim, amma haqqında çox eşitmişdim.

-Nə eşitmişdiz?

-Nümunəvi, fədakar ata olduğunu.

-Belə deyildi?

-Elə olsaydı, torpağın altında yox üstündə olardı.

-Bu cinayəti necə adlandıraq?

-Qanunların gücsüz olduğu yerdə,ən böyük qanun qanunsuzluğdu.

-Hökmünü vermisən?

-Bəli.

-Bağışlamağa gücün çatmadı?

-Düşməni bağışlamaq olar, ancaq onu asandan sonra!

-Aydındı. Cənab hakim, hakim ekspert Səməd Lətifov müddəhim Əliyevin psixoloji durumunun normal olmadığını müəyyənləşdirib, xahiş edərdim bunu da nəzərə alasız.

-Etiraz edirəm cənab hakim!

-Etiraz qəbul olunmur, Ağayev buyurub davam edin.

-Cənab hakim, vətəndaş Əliyev ölkənin ən tanınan, kübar ailələrindən birinə mənsub hörmətli iş adamıdı. Tanıtıma ehtiyacı yoxdu. Məzuniyyət adıyla hamıyla sağollaşıb, küçələrə düşməsi sizcə normal haldımı? Aidiyyatı olmayan bir ailənin qeyrətini çəkib, cinayətkar olması normal haldımı? Kim öz lyuks həyatını bir heçə qurban edər? Psixi normal insan edərmi? Xeyr! Deməli, vətəndaş Əliyevin müalicəyə ehtiyacı var.

-Ey, ağzıva gələni danışma! Xəstə, psix özünsən! Nə etdiyimi gözəl dərk edirəm!

-Vətəndaş Əliyev, danışdıqlarınıza diqqət edin! Bura məhkəmədi. Məhkəməyə etdiyiniz hörmətsizliyə görə də əlavə maddə açmayaq.

-Cənab hakim, icazənizlə davam edə bilərəm?

-Buyurun.

-Çox sağ olun. Vətəndaş Əliyev, mən sizin və vətəndaş Tağıyevanın müdafiəçisiyəm. İşimi çox gözəl bilirəm. Əsəbləşmək lazım deyil...Sualıma konkret cavab verin. Əməlinizə peşmansızmı? Cavab verməzdən əvvəl düşünün. Sualım vətəndaş Tağıyevayadır. Əgər Əliyev Əhədovu o gün qətlə yetirməsəydi, indi bu an Əhədovu öldürərdiz? Vicdanınızla cavab verəcəyinizə inanıram.

Zala sükut çökdü. Gözlər Banuya dikildi. Hətta Eyvaz da, Banunun cavabına səbirsizləndi. Banu başını aşağı salıb, gözlərini sildi. Dərindən nəfəs alıb dedi:

-Xeyr, öldürmazdim.

-Dürüst cavabınız üçün təşəkkürlər. Buyurun Əliyev, siz cavab verin.

Eyvaz susdu. Gözlərini gizlətmək istədi hamıdan. Bacarmadı. Üç tərəfi qəfəs, bir tərəfi divar. Sağ tərəfində üzünü əlləriylə örtən Banu. Divarı dağıdıb qaçmaq, uçmaq arzusuyla barmaqlarını ovuclarında sıxdı. Oyun bitmişdi. Adsız yolunun sonu onu uçurumla üzbə-üz saxlamışdı. Qalxdı ayağa danışmaq üçün və danışdı...

-Siz heç avtobusa, metroya minirsiz? Dükanlara gedirsiz? Növbə gözləyirsiz bankomat qarşısında? Palçıqlı küçələrdə yağışa islanıb, söyürsüz cəmiyyəti, küçələri?

Kafedə bir loxma çörək yemək istədikdə, fahişə ofisiantkaların murdar əllərini gördükdə çəkilmirmi iştahanız?

Baxmağa, oxumağa bir şey tapırsız?

Təyyarəni ömür boyu səmalarda, bahalı oyuncaqları yaşıdlarının əlində görəcək olan övladınıza "ata, niyə bizim filan şeyimiz yoxdu" sualında cavabı olmayanları düşünmüsüzmü ?

Sizdəmi məcbursuz süni gülüşlə gəzməyə ? Sizdəmi günün qaraltdığı qara gün ömür payının tükənməsinə tələsirsiz? Sizdəmi varlığıyla yoxluğunun önəmi olmayan kabussuz mənim kimi? Sizdəmi azadlığın əsirliyində qula çevrilmisiz ? Günortalar aşiqlərin sevişməsindən qızan skamyalarda gecələr necə soyuq olduğundan xəbərdarsınızmı? Ümüdsüzlük tanışmı sizə?

Yox, sizə xas olan mədəni söyüş olan təsəlli yedirtməyin mənə!

Maşında, kostyumda, kresloda, villa balkonunda gördüyünüz cənnət bizim qəbirstanlıqdı. Dirilər, kabuslar qəbirstanlığı.

Görə bilməzsiz bizi, istəsəz də...Yanımızdan ötsəz də.

Gördüyünüz deja vü kadrlardı keçmişin arxivindən.

Bizim yoxumuzdu sizin üçün var anlayışı arxasında olanlar. Nə maşın, nə pul, nə villa, bağ, xadimə, kəniz, məşuqə, qudurğan uşaq, maniken xanım.

Sizdən fərqli görürük, gəzirik, yeyirik, sevirik və düşünürük.

Evlənmə təklifini romantik etmək üçün Londona bir gecəlik iki bilet almırıq...

Yağışı gözləyirik...

Çəngəlin düz qoyuluşuna fikir vermirik...

Çəngəlsiz yeyirik...

Pulu hara xərcləyim kimi dərdimiz yox...

Pulumuz yox, çünki...

Siz canınız üçün mühafizəçi tutanda, bizləri intihar etməyə qoymur keyfiyyətsiz kəndirlər...

Sizlərlə bizlər arasında elə bir uçurum var ki, o uçurumu illərlə doldursaz da dolmaz.

Hər birimiz bir ürək daşıyırıq...

Bu ürəyin necə yandığından xəbəriniz varmı?

Kənardan necə də asan görünür, deyilmi?

Küçələrinizdə gündə bir meyit, tutulan cinayətkarlar...Necə asandı...

Meyit və cinayətkar...

Adlarının önəmi yoxdu, dahasının da heç...

Gedib araşdırmısızmı həyatlarını, yaşamlarını, yediklərini, içdiklərini...

Lənət olsun, lənət!

Heçmi önəmi yox insanlığın?

Hansı it oğlu it gedib boş yerə adam vurar? O cinayətkarsa qapısına vətəndaş kimi getdiyi, iş istədiyi məmurlar kimlərdi? Hə?

Vətəndaşın haqqını yeyib də, əzib də, bundan utanmayıb da, əməllərinə xitam verməyənlər kimlərdi, yoldaş hakim? Kimlər?

Siz adı, tarixçəsi önəmli olmayan bir insanı müddəhim kürsüsünə çıxarıb da, nədən cinayətkar olduğumu soruşursuz, peşman olub-olmamağımı soruşursuz...

Peşmanam, yoldaş hakim!

İnsan olmağıma, vətəndaş olmağıma, dürüst olmağıma peşmanam!

Hə, yadıma bir şey düşdü...

Bolqariyanın paytaxtı haradı?

Önəmi yoxdu, elədi?

Var, var! Coğrafiya müəllimi Sofiya cavabı qarşılığı məktəbdə parta yoldaşım Ənvərə 2 yazmış və əslində paytaxtın Buxarest olduğunu bildirmişdi!

Sizə də mən kiməm suali verilsə cavabı cinayətkar olacaq!

Tam sükut çökmüşdü. Nəfəslər çəkilmirdi sanki. Hakimlər öz aralarında pıçıldaşırdılar. Ağayevin gözləri yol çəkirdi. Nəhayət hakim ayağa qalxıb dedi:

-Hökm on dəqiqə fasilədən sonra oxunulacaq!

On dəqiqə azadlıq olardı.

Gözlər azadlıqdan doyardı.

Sonrası cəhənnəm cənnətdə solardı.

Bir damcı su,bir ovuc torpaq.

Bir də bir neçə xatirə şikəst,çolaq.

Azadlıq yeyək,azadlıq içək,azadlıq qoxlayaq.

Qoxular özü də bir ətir.

Satılacaq yağışsız çətir.

Gətir!

Mənə yağış gətir!

Mənə azadlıqdan nə tapsan gətir!

-Qalxın,məhkəmə gəlir!

-Əyləşin!

Hakim eynəyini silib, gözünə qoydu. Cinayət tarixçəsini başdan-ayağa oxudu və mətləbə gəldikdə, zaldakılar ayağa qalxdılar.

-Azərbaycan Respublikası Cinayət məcəlləsinin...

-Saxla görüm!

Hamı hakimin sözünü ağzında qoyan, ona susmaq əmri verən səs tərəfə boylandı. Qapıda dəbdəbəli kostyumda, mühafizəçilərinin əhatəsində əlində çemodan tutmuş Cavid durmuşdu.

Hakim çaş-baş olduğundan dili söz tutmurdu nəsə deməyə. Cavid ona yaxınlaşıb, qulağına nəsə pıçıldadı. Hakim udqundu, özünü toparlayıb dedi:

-Məhkəmənin işə yenidən baxması üçün hökm təxirə salınır!

Cavid bic-bic gülümsəyib, hakimin əlini sıxaraq, Eyvaza göz vurdu.

Penitensiar xidmətin əməkdaşlarının müşayiəti ilə məhkəmə zalından çıxan əlləri qandallı Eyvaz və Banu küçədə maşınına söykənib duran Cavidi gördülər. Qollarındakı qandalları açan ədliyyə əməkdaşları sağollaşıb getdilər. Cavid eynəyini qaşlarına qaldırıb gülərüz halda qışqırdı:

-Böyük, böyük uşaq olasız...

Eyvazı qucaqlayıb, doluxsundu.

-Hə Eyvaz, nə gözləyirsiz gedək?

-Getdik qardaş.

-Hara?

-Burdan uzaq, lap elə cəhənnəmə, amma burdan uzağa.

-Cavid?

-Ay can?

-Toğrul?

-Narahat olma o öz yoluna ad qoyub, qayıtdı.Ha-ha-ha.

-Necə yəni?

-Darıxma, bilərsən. Dincəl, sual vermə, görəcəksən.

-Bəs Cəlil?

-O da yaxşıdı. Artıq mayordu.

-Gözəl xəbərdi.

-Dincəl, dincəl...

-Sür Sovetskiyə.

-Sovetski hardan çıxdı?

-Sür, deyərəm.

Təndir çörəyi satılan pəncərə qarşısında Eyvaz Caviddən maşını saxlamağı xahiş etdi.

Ona çörək verən kişinin simasını asanlıqda tanıdı. Kişi isə tanımamışdı"səyyahı"...

-Cavid, pul ver mənə.

-Buyur, bəsdi?

-Hə, hə bəsdi. Gözləyin, gəlirəm indi.

Maşından düşüb, kişiyə yanaşdı. Doğma iyin burnuna dolmasından ləzzət alırmış kimi, ah çəkdi.

-Dayıcan? Sənə söz vermişdim, gələcəyəm. Gəldim.

-Xoş gəldin oğul, amma qüsuruma baxma, tanımadım vallah...

-Önəmli deyil...Mənə bir təndir çörəyi, zəhmət deyilsə.

-Buyur oğlum, nuş olsun.

-Al pulunu dayı, çox sağ ol.

Kişi Eyvazın verdiyi pula baxıb təəcübləndi. Bir çörək qarşılığı üç yüz manat.

-Oğul bu pul...

-Dayıcan, düz vermişəm. Halal xoşun olsun. Allaha əmanət ol.

Bunu deyib, çörəkdən bir dişdəm vurdu. Kişi "səyyahı" indi tanıdı. Əlində pul donub qalmışdı. Dolmuş gözlərinin müşayəti ilə "səyyahı" aparan maşın sürətlə uzaqlaşırdı...

***

-Niyə?

- ...

-Cavab ver, niyə?

-Toğrul, mən...Deyə bilmədim.

-Niyə? Niyə?

-Nə deyərdim? Deyərdim hər kəsin qardaşım bildiyi Aqil, ərimdi? Deyərdim aşnasıyam? Deyərdim zorlayıb məni, sonra da qaçırdıb?

-Deməməyin yaxşı idi, hə? Bəs mən...

-Nə sən? Hə,Toğrul? Nə sən? Nə qədər dedim ki, əl çəkəsən?! Nə qədər dedim, alınmayacaq?! Mən də insanam Toğrul. Sevdiyim sənin duyğularına necə cavab verməyə bilərdim axı?! Özümü təmizə çıxartmıram, amma sənə də haqq qazandırmıram!

Toğrulun yadına damda Günayın bağışla deməsi düşdü...O vaxt əhəmiyyət vermədiyi bu söz indi, bu an onunla üzbə-üz durmuşdu...

-Niyə bəs ona qardaşım deyirdin?

-Özü belə tapşırmışdı. Ad çıxmasın deyə.

-Günay...

-Hə?

-Mən səni sevirəm!

-Məndə, Toğrul. Məndə, ömrüm!

Adsız yolun sonu və...

Hər şey belə bitə bilərdi, amma yox...

Cavid əslində şizofren xəstəsi idi. Alik adlı bomj onun gözünə görsənirdi. Bəlkə də yox, əslində Alik var idi, amma Cavid bunu heç kimə sübut edə bilmədi. Xəstəxanadan çıxan zaman baş həkimdən Aliki xəbər alması, sağalma iddiasının üstündən xətt çəkdi və beş il müalicə aldı. Məhkəmə zalına girib, hakimin sözünü kəsməsi, hökmün oxunmasına imkan verməməsi, məhkəməni satın alması sadəcə təxəyyülü idi. İndi guya sağalıb, amma arada kabinetində tək olanda, iş yoldaşları onun kiminləsə söhbət edirmiş kimi, öz-özünə danışdığını eşidirlər.

Toğrul Günayı qəbul etdi. Sadə bir toy elətdirdi Xəzərin sahilində. Valideynləri qəti əleyhinə çıxsalar da, o öz yolunu seçib, addımını atdı. Artıq atadır. İki yaşlı Nəzrin adlı gözəl qızları var. Günayla bərabər xöşbəxtdilər!

Eyvaz...Məhkəmənin hökmü ilə ona yeddi, Banuya icbari iş verildi.Azadlığa çıxan gün həbsxana qarşısında onu Cavid və Banu gözləyirdi. Banu ilə ailə həyatı qurdu. Basatı, Əfqanı və Əfqanın böyüdüyü uşaq evini himayəsi altına götürdü.

Cəlil əslində həmişə onlarla idi. Harda olsalar da. Cavidin xəstəxanadakı xərclərini, müalicəsini o boynuna götürsə də, anonimliyini qorumağı xahiş etmişdi. Tahiri də tez-tez "görər", Toğrulun rahatlığını təmin edirdi. Tək bircə səhv addımına peşman oldu Cəlil...Aqilin yerini o demişdi Banuya...Ağlına da gəlməz idi ki, Eyvaz Aqili öldürə bilər.Onun niyyəti Banunun gözünü açmaq idi. Aqilin xəyanətini öyrəndikdən sonra Eyvaza şans verməyini istəyirdi...Bir tərəfdən də, Toğrulun Günayı dəli kimi sevməsi anlamı həqiqətin açılmasını

qaçılmaz edirdi. Düşünürdü ki, Aqil Günaydan əl çəkər və Toğrula maneyə qalmaz. Amma hər şey istədiyi, düşündüyü kimi olmadı...

Adsız yolun sonunda onların danışmağa, bölüşməyə bəlkə də heç vaxt bitib-tükənməyəcək çox söhbətləri var idi. Ən əsası onlar çətinliyin, əziyyətin nə olduğunu anlamışdılar. Heç biri peşman deyildi, adsız yola çıxdıqlarına görə.

Epiloq

Səndən fərqli olmağım bəlkə də sənlə yaşamağa öyrəşdirdi məni. Məni düşündürən sənsən? Bax, bu sualın cavabını bəlkə də, yox bəlkəsiz heç vaxt bilməyəcəyəm...

Mən qəlb qırmamışam. Bəs onda telefon kitabçasından silinən adları kim pozub?

Malena arzulayan yeniyetmə fantaziyalarını vanilli səmalarda gəzdirən sən...Niyə bəs gizlətmişdin ki, möcüzələr diyarında da zibilliklər var. Peyğəmbərlər də tualetə gediblər.Müəllimlər özgə planetli deyillər. Bizi leylək gətirməyib.

"Olmaz" dediyin bütün pərdələri araladım, bütün pəncərələrdən baxdım, bütün qapıları döydüm.

Nitşedən, Kafkadan bezdim. Markesin axmaqlar şəhərində hər gün nəsə unutdum. Son damla düşüncəmi mürəkkəbə yığıb şəhərin ən yüksək nöqtəsində "ALLAH var!" yazdım ki, unutmayım.

Parfumerə çöndüm fərqli xanımların spesifik qoxularını burnuma yedizdirəndə.

Əbədi məhkumum olan sənlə bərabər.(Yalan danışdım yenə).

Replay:Əbədi məhkumun olan mənlə bərabər.

Tapancam olmadığına hərdən sevinirəm. Pulum olmadığına da...

Minirəm bir vaqona...Xoş olmayan sima və paaartt!

Çətini başlamaqdi. Artıq cinayətkaram. Bu refleks stresiylə part, part, paaarrt, çıık...çık...

Satın alıram hakimi, vəkili, elə məhkəmə binasını da, şəhəri də, ölkəni də...

Diktatura yaradıram. Ətrafımdakı yaltaqlar mənə kitab yazır, haqqımda film çəkirlər. Heykəlim Liberty heykəlinə sözün tam mənasında kölgə salır. İtim, pişiyim üçün Vatikanı yuva, fahişələri, transvisditləri kişilərin "qara zon"alarına, lezbiləri qadın həbsxanalarına pay edəcəyəm. Narkomanların damarlarına şprits yerinə nasosla heroin yeridəcəyəm. Qocalar evindəki qocalara övladlarının insafına, uşaq evindəki körpələrə valideynlərinin vicdanina bağlanmış bombanın pultunu bağışlayacağam. Arvadina xəyanət edən oğraşları, ərinə xəyanət edən fahişələri nəcis içində boğaza kimi basdırıb, qaynadacağam. Əlvidaları leksikondan çixartmağı əmr edəcəyəm. Kim bu sözü işlətsə güllələnəcək. Yalan danışanların dillərindən bayraqcıqlar hazırlanacaq.

Elə qorxacaqlar ki məndən ölümümə belə inanmayacaqlar. Hitler kimi. Elə nifrət edəcəklər ki, dözməyib qəbrimi açıb, meyidimi təpikləyəcəklər, sonra yandıracaqlar. Qanımdan ən öldürücü zəhər hazırlanacaq...

Nə vaxtsa, 100 il sonra mənim haqda məni tanımayanlara danışarsan, pıçıltıyla. İşəyərlər qorxudan yerlərinə...Onda belə bilməyəcəklər ki, əslində mən elə sənəm və sən əsl mənsən.

Onların dahisi...

Axmaqların dahisi.